# BAYRAMLARINIZ MÜBARƏK!


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 101 (8417) ŞƏNBƏ, 23 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az







**May ayının 28-də xalqımızın dövlətçilik tarixinin ən parlaq səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 102-ci ili tamam olur. Azərbaycan Xalq Cümhuriyyəti bütün Müsəlman Şərqində ilk demokratik, türk dünyasında isə ilk hüquqi dövlət idi. Məhz belə bir dövlətin qurulması xalqımızın milli şüur səviyyəsinin, siyasi, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi.**

### Müsəlman Şərqinin ilk demokratik dövləti

Xalqımızın tarixi kökləri olan dövlətçilik ənənələri Birinci Dünya müharibəsinin gedişində və Rusiyada baş verən daxili mübarizələrin nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə yenidən dirçəlməyə başladı. 1918-ci idə yaranmış tarixi fürsəti düzgün dəyərləndirən xalqımızın vətənpərvər övladlarının yorulmaz səylərinin nəticəsi olaraq müstəqilliyə aparan yollarda bütün maneələr dəf edildi. Məhz o insanların milli və müstəqil dövlətçiliyin bərpa olunmasına xidmət edən əqidə və məslək birliyi son nəticədə öz sözünü dedi və müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı bütün dünyaya bəyan olundu. Müstəqil dövlətin yaradılması, "İstiqlal" Bəyannaməsinin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi ki, həmin insanlar şücaət göstərərək bu tarixi addımı atdılar.

Ümummilli Lider Heydər Əliyev 1918-ci ildə dövlət müstəqilliyimizin bərpasında böyük xidmətləri olmuş görkəmli şəxslərin adlarının Azərbaycan xalqının yaddaşına əbədi həkk olunduğunu bildirib: "1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur".

*Ardı 2-ci səh.*

# Şərəf və ləyaqət tariximiz

**Birinci dünya müharibəsi nəticəsində 300 ildən artıq Rusiyanı idarə edən Romanovlar monarxiyası devrildi. Yaranmış müvəqqəti hökumət Rusiyanın keçmiş sərhədlərini qoruyub saxlamaq üçün bütün mümkün addımları atdı. Cənubi Qafqazı idarə etmək üçün yaradılmış "Zaqafqaziya komissarlığının ömrü uzun olmadı. Nüfuzdan düşən bu təşkilat özünü buraxmaq məcburiyyətində qaldı.**



1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seyminin yaradılması və hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi.

1918-ci il fevralın 23-də öz işinə başlayan Zaqafqaziya Seymi Cənubi Qafqazda siyasi sabitliyi təmin etmək kimi tarixi bir missiyanın öhdəsindən gələ bilmədi. Mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi. Gürcü fraksiyası müsəlman fraksiyasının türkpərəst mövqe tutduğunu bəhanə edərək Seymdən çıxdığını elan etdi.

Mayın 27-də Seymin müsəlman fraksiyası fövqəladə iclas çağırıb Müvəqqəti Milli Şura yaratmaq haqqında qərar qəbul etdi. "Müsavat" partiyasının təklifi ilə M.Ə.Rəsulzadə qiyabi olaraq (həmin vaxt o Batum konfransında iştirak edirdi) Milli Şuranın sədri, H.Ağayev və M.Seyidov isə sədrin müavinləri seçildilər. Milli Şuranın 9 nəfərdən ibarət icraiyyə orqanı yaradıldı. F.Xoyski İcraiyyə Komitəsinin sədri seçildi.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanın dövlət müstəqilliyi haqqında "İstiqlal bəyənnaməsi" qəbul etdi. Bu bəyənnamə Azərbaycan millətinin varlığını bütün dünyaya bəyan etdi.

*Ardı 5-ci səh.*

# *İLHAM ƏLİYEV:* "Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılıram"

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin hidayət yolu olaraq bəşəriyyətə göndərildiyi Ramazan ayı insanları saflığa, vəhdətə, şəfqət və mərhəmətə dəvət edir. Bu ayda möminlər Uca Yaradan qarşısında mənəvi borclarını ödəmək fürsəti qazanır, əxlaqi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

Builki Ramazan ayını dünyanın böyük təhlükə ilə üz-üzə qaldığı mürəkkəb bir şəraitdə başa vururuq. Mövcud vəziyyət əhalimizin sağlamlığı və rifahı üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir. Qarşılaşdığımız qlobal bəla ilə mübarizənin uğuru daha çox cəmiyyətin hər bir üzvünün yüksək məsuliyyəti və intizamlı davranışından asılıdır. Müqəddəs kitabımız Quran da daim birlik və bərabərliyə, sosial yardımlaşma və xeyirxahlığa çağırır. Əminəm ki, həmişə belə nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərlərini uca tutan xalqımız öz mütəşəkkilliyi və həmrəyliyi sayəsində bu çətinliyi də geridə qoyacaqdır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq duyğuları ilə yola salırlar. Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının xatirəsini bir daha ehtiramla yad edirəm.

Oruc və ibadətlərinizin Allah dərgahında qəbul olunması diləyi ilə hər birinizə möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.



Ramazan bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

# *Vladimir PUTİN:* "Azərbaycan dünya arenasında haqlı olaraq nüfuz qazanıb"



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkənizin sosial-iqtisadi, elmi-texniki və digər sahələrdə qazandığı uğurlar hamı tərəfindən qəbul edilir. Azərbaycan dünya arenasında haqlı olaraq nüfuz qazanıb, beynəlxalq gündəlikdə duran məsələlərin həllində əhəmiyyətli rol oynayır.

Rusiya-Azərbaycan münasibətləri yüksək səviyyədədir. Əminəm ki, biz birgə səylərimizlə ikitərəfli strateji tərəfdaşlığın, konstruktiv əməkdaşlığın bütün istiqamətlərdə bundan sonra da inkişafını təmin edəcəyik. Bu proses, şübhəsiz, bizim dost xalqlarımızın köklü maraqlarına cavab verir, regional sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi məcrasında inkişaf edir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycan Respublikasının bütün vətəndaşlarına rifah və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***



# Azərbaycan müasir texnologiyaların tətbiqinə xüsusi önəm verir

## "Signify" şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib

**Mayın 22-də "Signify" (əvvəlki adı "Philips Lighting") şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin baş icraçı direktoru Erik Rondolat, MDB üzrə baş meneceri Erik Benedetti və "Signify" rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, 1891-ci ildə yaranan bu şirkət dünyanın 74 ölkəsində fəaliyyət göstərir, 140 ölkədə xidmət və məhsul satışı həyata keçirir. "Signify" işıqlandırma avadanlıqları, sistemləri və xidmətləri sahəsində dünyada birinci yerdə olmaqla yanaşı, 10 "yaşıl" şirkətdən biridir.

**Prezident İlham ƏLİYEV:** Sabahınız xeyir.

Baş icraçı direktor **Erik RONDOLAT:** Sabahınız xeyir.

**Prezident İlham ƏLİYEV:** Sizi görməyə çox şadam.

**Erik RONDOLAT:** Vaxt ayırdığınıza görə minnətdaram. Mən də Sizi görməyimə çox şadam.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Davosdakı görüşümüzü xatırlayıram. Mənə verilən məlumata görə, o vaxtdan bəri bizim yaxşı irəliləyişimiz olub. Baxmayaraq ki, koronavirusla bağlı vəziyyət bizim planlarımıza bir az müdaxilə etdi, lakin mənə məlumat verildiyi kimi, bizim müzakirə etdiklərimizin və razılaşdırdıqlarımızın hamısı indi icra mərhələsindədir.

**Erik RONDOLAT:** Bəli, tamamilə doğrudur. Çox məmnunuq ki, Bakı şəhərində 33 min LED işıq quraşdırılacaq və onların sayəsində çox böyük həcmdə enerjiyə qənaət ediləcək. Qənaət göstəricisi minimum 50 faiz təşkil edir.

*Ardı 2-ci səh.*

# Azərbaycan müasir texnologiyaların tətbiqinə xüsusi önəm verir

## "Signify" şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib

*Əvvəli 1-ci səh.*



Həmin layihə davam edir. Eyni zamanda, çox şadıq ki, Siz bizə tam dəstək verirsiniz. Bu işə bağlantının yaradılması ilə başladıq. Bu, ona görə edilir ki, sonrakı mərhələdə quraşdırılan işıqlar arasında bağlantı mümkün olsun.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Şadam ki, bayaq da qeyd etdiyim kimi, hər şey cədvələ uyğun olaraq gedir. Mənə məlumat verildi ki, Davosdakı görüşdən sonra sizin komandanız bizi mart ayında ziyarət etmişdir. Sizin də qeyd etdiyiniz kimi, sentyabrın sonunadək bizdə Bakı üçün minlərlə yeni küçə işığını özündə ehtiva edəcək birinci mərhələ artıq icra edilmiş olacaq. Bu da birinci növbədə küçələrin işıqlandırılması baxımından vəziyyəti yaxşı olmayan əraziləri əhatə edəcək. Eyni zamanda, sizin də qeyd etdiyiniz kimi, biz böyük miqdarda enerjiyə qənaət etmiş olacağıq. İnsanlar da bunun faydasını görəcəklər. Bizim müzakirə etdiyimiz kimi, bu birinci layihədən sonra birgə fəaliyyətimizin genişləndirilməsinə, Bakı və digər şəhərlərin əhatə edilməsinə dair böyük planlarımız var. Birinci mərhələdə ola bilsin ki, böyük şəhərlər əhatə olunacaq. Biz Sumqayıt şəhərinin küçə işıqları barədə danışdıq. Mənim bildiyimə görə qiymətləndirmə prosesi gedir. Beləliklə, ümid edirəm ki, bizim bu sahədə uzunmüddətli əməkdaşlığımız olacaq.

**Erik RONDOLAT:** Bəli, biz də dəqiqliklə həmin işləri görmək istərdik. COVID-19 səbəbindən bizdə işin icrası ilə bağlı müəyyən yubanma ola bilər. Lakin hesab edirəm ki, hamımız işin başa çatdırılmasına köklənmişik.

Erik Rondolat işıqlandırma sistemlərinin quraşdırılmasının şəhərin yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində rolunu qeyd etdi. Pandemiya bitəndən sonra təmsil etdiyi şirkətin Azərbaycanla əməkdaşlığının uğurla davam edəcəyinə ümidvar olduğunu dedi.

**Erik RONDOLAT:** Biz çox fərəhlənirik ki, işıqlandırmanın ən son yeniliklərini Bakıda tətbiq edə biləcəyik.

**Prezident İlham ƏLİYEV:** Bəli, təşəkkür edirəm. Bilirəm ki, şirkətiniz artıq Azərbaycanda dövlət və özəl sektorla bir neçə layihə həyata keçirib. Lakin Davosda müzakirə etdiyimiz və indi birgə icra etdiyimiz bu layihə, əlbəttə ki, ən böyük miqyaslı layihədir. Əvvəllər də müzakirə etdiyimiz kimi, onun gələcək üçün böyük potensialı var. Çünki bu, birinci təcrübədir. Mən əminəm ki, bu, çox uğurlu bir təcrübə olacaqdır və sonra da bələdiyyə, şəhər idarəetmə orqanları bunun faydasını görəcəklər. Bildirildi ki, biz çoxlu enerjiyə, yerin təkindən hasil edilən yanacağa digər məqsədlər üçün, ixrac üçün qənaət edəcəyik və şəhərin həyatını daha da yaxşı edəcəyik.

**Erik RONDOLAT:** Əvvəlcə qeyd etdiyim kimi, biz sonrakı mərhələdə bağlantını da təmin edəcəyik və onun sayəsində əlavə imkanlar ortaya çıxacaq. Beləliklə, Bakı şəhərinin işıqları "Ağıllı şəhər"in komponentinə çevriləcək. Bir daha verdiyiniz dəstəyə görə minnətdaram.

Prezidentin köməkçisi Natiq Əmirov "Signify" şirkəti ilə əməkdaşlıqdan və perspektiv layihələrdən danışdı.

**Natiq ƏMİROV:** Cənab Prezident. Əvvəla sıx iş qrafikinizə rəğmən bu görüşü təşkil etdiyinizə və bizə "Signify" şirkəti ilə birlikdə bu layihə ilə bağlı bütün məsələləri müzakirə etmək imkanı yaratdığınıza görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Əslində "Bakı ağıllı şəhər" işıqlandırılması layihəsi üzrə işlərin gedişi hazırda çox yaxşıdır və bir çox işlər görülmüşdür. Onlar bizim müqaviləni tamamlayıblar. İyul ayından başlayaraq bütün lampaların ölkəmizə idxalı prosesi başlayacaq və idxal prosesi sentyabrın sonu, oktyabrın əvvəlində başa çatacaq.

**Erik RONDOLAT:** Cənab Prezident, bir məsələni də qeyd edim. Bütün dünyada hazırda böhrandır. Bilirik ki, Siz pandemiyanı dayandırmaq üçün Azərbaycan Respublikasında çox ciddi tədbirlər görürsünüz.

"Signify" şirkətinin baş icraçı direktoru COVID-19 virusu ilə mübarizə sahəsində müasir texnologiyalar üzərində iş aparıldığını dedi və bu sahədə ölkəmizlə əməkdaşlığa hazır olduğunu vurğuladı.

**Prezident İlham ƏLİYEV:** Virus bütün ölkələrə təsir edib. Aydındır ki, o, yoxa çıxmayacaq, biz bu virusla yaşamalı olacağıq. Ona görə də düşünürəm ki, bu ehtiyat tədbirləri, əlbəttə, artıq bizim həyatımıza çox uzun müddətə daxil olub. Bu səbəbdən də bizim müasir, ən mürəkkəb texnoloji tələblərə cavab verən qabaqlayıcı vasitələrə ehtiyacımız var. Biz insanlarımızı qorumaq üçün əlimizdən gələni edirik. Lap əvvəldən biz çox mühüm qabaqlayıcı tədbirlər gördük, bu da bizə insanlarımızı qorumağa və minimum itki ilə bu vəziyyətdən çıxmaq üçün yol tapmağa imkan verdi. Bizim səylərimiz Azərbaycanı koronavirusa qarşı mübarizədə nümunə adlandıran Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də qiymətləndirilib. Əlbəttə ki, mən sizin bəşəriyyətin özünü qorumasına yardım etmək üçün texnologiyalar təşəbbüsünüzü tam dəstəkləyirəm.

Şirkətin MDB üzrə baş meneceri Erik Benedetti Bakının müxtəlif hissələrinin, o cümlədən şəhərin mərkəzi tarixi hissəsinin müvafiq şəkildə işıqlandırılması ilə bağlı aparılan işlərdən danışdı.

Şirkətin Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə satış Meneceri Andrey Zaxarkiv Bakıda həyata keçiriləcək "Ağıllı şəhər" layihəsindən danışdı və pilot layihənin icrası üçün işlərin hazır olduğunu dedi.

Erik Rondolat kənd təsərrüfatında, o cümlədən heyvandarlıq, quşçuluq və əkinçilik sahələrində məhsuldarlığın əhəmiyyətli dərəcədə artırılması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı, su istehlakının azaldılması sahələrində əməkdaşlıq məsələlərinə toxundu, ölkəmizlə bu istiqamətlərdə təcrübəni bölüşməyə hazır olduğunu dedi. Söhbət zamanı kənd təsərrüfatı sahəsində müasir texnologiyaların tətbiqi və bu işdə gənc kadrların hazırlanması məsələləri də müzakirə olundu.

**Prezident İlham ƏLİYEV:** Bu sahədə aparılan islahatlar sayəsində biz daha çox gəncin kənd təsərrüfatı üzrə mütəxəssis olmaq istədiyini və Aqrar Universitetdə bu peşəni seçmək istəyən gənclərin sayının artdığını görürük. Biz yeni elektron kənd təsərrüfatı sistemini həyata keçiririk. Bu, artıq bizə həyatımızın və iqtisadiyyatımızın mühüm sahəsinin səmərəliliyini artırmağa çox kömək edir. Çünki ölkə əhalisinin, demək olar ki, 50 faizi kənd yerlərində yaşayır. Beləliklə, əminəm ki, bu, bizim birgə həyata keçirə biləcəyimiz çox mühüm yeni layihə ola bilər. Ümumilikdə Azərbaycan yeni texnologiyalara, innovasiyalara hazırdır. Biz artıq bunun üçün əhəmiyyətli insan kapitalı yaratmışıq və bizim dövlət xidmətləri, sosial xidmətlərlə bağlı texnologiyalarımız bu gün bəzi başqa ölkələr tərəfindən istifadə olunur. Ona görə də biz yeni texnologiyalara tam açığıq, çünki onlar yeni miqyasa, dinamizmə, tərəqqiyə, iş yerlərinə və rifaha gətirib çıxarır.

**Erik RONDOLAT:** Təşəkkür edirəm, cənab Prezident. Bilirəm ki, Siz çox məşğulsunuz. Bizə bu səhər vaxt ayırdığınıza və Davosdakı son görüşümüzdən sonra işlərin olduqca sürətli həyata keçirilməsinə görə çox təşəkkür edirəm. Siz bizim şirkətə və şəxsən mənə arxalana bilərsiniz. Biz planlaşdırdığımız bütün birgə layihələri dəstəkləməyə hazırıq. Mən çox şadam ki, Siz ölkənizdə texnologiyaların inkişafına önəm verirsiniz. Çünki bir çox hallarda bəzi ölkələr texnologiyanın ölkənin inkişafı üçün bir vasitə olduğunu bilmir və ya buna əhəmiyyət vermir. Azərbaycanda isə Siz bu texnologiyaların çox mütərəqqi olduğunu nümayiş etdirirsiniz. Sizin vaxtınızı çox almaq istəmirik. Sizinlə danışmaq imkanına görə çox şadam və Azərbaycan Respublikasına tərəqqi arzulayıram. Bilirəm ki, bu ayın 28-i Respublika Günü qeyd edilir. Mən Ramazan ayının qeyd edildiyi bir ölkədə doğulmuşam və bilirəm ki, bu gün Ramazan ayının son günləridir. Bu münasibətlə də Sizi təbrik edirəm və bir daha dərin minnətdarlığımızı bildirirəm.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Çox təşəkkür edirəm. Mən bizim şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm, onlar nəticəyə hədəflənmiş münasibətlərdir. Düşünürəm ki, bu, insanların həyatını yaxşılaşdırmaq, iqtisadiyyatı gücləndirmək, resurslara qənaət etmək və kənd təsərrüfatında daha çox nəticə əldə etmək üçün sizin müasir texnologiyalarla bizim ölkənin bu texnologiyaların tətbiqində liderlərdən biri olmaq istəyinin çox yaxşı vəhdətidir. Mən bilirəm ki, sizin şirkətiniz bu sahədə dünyada aparıcı şirkətlərdən biridir. Ona görə də nə qədər çox yeni texnologiya ixtira etsəniz, birgə əməkdaşlığımız üçün bir o qədər çox imkan yaranacaq. Buna görə sizə təşəkkür edirəm. Tezliklə sizinlə şəxsən görüşməyə ümid edirəm.

**Erik RONDOLAT:** Mən də cənab Prezident.

---

## "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 607; 2005, № 10, maddə 905; 2008, № 8, maddə 701; 2014, № 6, maddə 620; 2015, № 2, maddə 93, № 11, maddə 1255, № 12, maddə 1442; 2016, № 8, maddə 1367; 2017, № 6, maddə 1059; 2018, № 2, maddə 161, № 10, maddə 1970; 2019, № 3, maddə 371) 10-cu maddəsinin ikinci hissəsinin ikinci cümləsi çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2020-ci il iyunun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

---

## 2020-ci il üçün Azərbaycan Respublikasının elm sahəsində Dövlət Mükafatının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2020-ci il üçün elm sahəsində Azərbaycan Respublikasının Dövlət Mükafatı "Materiyanın yeni kvant halı - antiferromaqnit topoloji izolyator: dizayn, əsas elektron xassələri və tətbiq perspektivləri" mövzusunda elmi məqalələr toplusuna görə aşağıdakı şəxslərə verilsin:

Nazim Timur oğlu Məmmədov
İmaməddin Rəcəbəli oğlu Əmiraslanov
Nadir Allahverdi oğlu Abdullayev
Ziya Saxavəddin oğlu Əliyev.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

---

## Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ələt azad iqtisadi zonası yaradılsın.

2. Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu (bundan sonra - Azad Zona səlahiyyətli qurumu) yaradılsın.

3. Bu Fərmana 1-3 nömrəli əlavələrdəki yerquruluşu planlarında göstərilmiş Bakı şəhəri Qaradağ rayonunun inzibati ərazisində yerləşən torpaqlar Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilsin.

4. Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumu ləğv edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. bu Fərmana 1-3 nömrəli əlavələrdəki yerquruluşu planlarında göstərilmiş torpaqların "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun alınması istiqamətində zəruri tədbirlər görsün;

5.2. bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq torpaqların dövlət ehtiyacı üçün alınması yekunlaşdıqdan sonra bu Fərmana 1-3 nömrəli əlavələrdəki yerquruluşu planlarında göstərilmiş torpaqların Azad Zona səlahiyyətli qurumuna birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə verilməsi barədə təkliflərini müvafiq yerquruluşu planları ilə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.3. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinə ayrılmış ərazinin Ələt azad iqtisadi zonasının ərazisinə daxil edilməsi üçün zəruri normativ hüquqi aktların layihələrini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.4. "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə uyğun olaraq, Azad Zona səlahiyyətli qurumunun öz hüquq və vəzifələrini həyata keçirməsi üçün maliyyələşmə məsələlərinin həllini təmin etsin;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azad Zona səlahiyyətli qurumu Azad Zona səlahiyyətli qurumunun təşkilati strukturunun müəyyən edilməsi ilə bağlı təkliflərini on beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

7. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər bu Fərmandan irəli gələn məsələlərin həlli ilə bağlı Azad Zona səlahiyyətli qurumuna lazımi kömək göstərilməsini təmin etsinlər.

8. "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1670-VQD nömrəli Qanununun tətbiqi, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 iyun tarixli 107 nömrəli Fərmanında dəyişiklik edilməsi və Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 noyabr tarixli 861 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1709) 3-7-ci hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

---

# Əbədi və sarsılmaz müstəqillik

*Əvvəli 1-ci səh.*

Azərbaycan Milli Şurasının qəbul etdiyi "İstiqlal" Bəyannaməsi Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya elan etdi. Xalq Cümhuriyyətinin qısa müddətdə həyata keçirdiyi tədbirlər sayəsində Silahlı Qüvvələr formalaşdırıldı, Bakı işğaldan azad edildi, ordumuzun birləşmələri Dağlıq Qarabağda erməni hərbi birliklərinə qarşı bir sıra uğurlu əməliyyatlar keçirərək əhalinin rahat yaşayışını təmin etdilər.

### Müstəqillik ideyası xalqımızı heç vaxt tərk etmədi

Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti bir sıra dövlətlərlə ikitərəfli diplomatik münasibətlərin qurulmasına nail ola bildi. Bunların nəticəsi olaraq 1920-ci ilin yanvarında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanınırdı. Dövlətçilik göstəricilərinə və prinsiplərinə görə, Şərqdə ilk demokratik respublika olan Azərbaycan artıq özünün parlamenti, hökuməti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlət idi.

Azərbaycan Xalq Cümhuriyyəti həm yaranması, həm də 23 ayda gördüyü işlərlə xalqımızın tarixində silinməz iz buraxdı, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynadı, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirdi. Məhz buna görə də 1920-ci ilin aprelində bolşevik işğalı nəticəsində cümhuriyyət süqut etdikdən sonra da müstəqillik hissləri azərbaycanlıları sonrakı dövrdə də heç zaman tərk etmədi, azadlıq ideyaları şüurlara hakim kəsildi. Ancaq respublikanın süqutu onu göstərdi ki, müstəqilliyi qoruyub saxlamaq, müdafiə etmək onu əldə etməkdən daha da çətin işdir.

### Heydər Əliyev xalqımızı milli dövlətçilik ideyası ətrafında səfərbər etdi

Sovet illərində Azərbaycan formal olaraq müstəqil olsa da, əslində bu əsarətdən başqa bir şey deyildi. Xalqın bütün milli-mənəvi dəyərləri əlindən alınmış, tamamilə yad ideologiyanın təsiri altına düşmüşdü. Üstəlik, zəngin iqtisadi potensialı, nefti olan Azərbaycan sadəcə olaraq İttifaqın xammal bazası rolunu oynayırdı. Respublika öz iqtisadi və sosial göstəricilərinə görə, SSRİ ölkələri arasında axırıncı yerdə dayanırdı. Eyni fikirləri milli mədəniyyətimiz barədə də demək olar. Əgər bir az da belə getsəydi, öz mental dəyərləri, mənəvi xəzinəsi ilə dünyaya nümunə olan Azərbaycan xalqının zəngin irsindən heç nə qalmayacaqdı.

Amma 1969-cu ildə Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından sonra ölkədə hər şey dəyişdi. Xalqın mənəvi dəyərləri özünə qayıtdı, ölkə xammal bazasından istehsalçıya çevrildi. Heydər Əliyevin sayəsində tezliklə Azərbaycanı və onun mədəniyyətini bütün dünyada daha yaxından tanımağa başladılar. Bu gün haqlı olaraq Heydər Əliyevin Azərbaycana hakimiyyətinin birinci dövrü ölkəmizin intibah mərhələsi adlandırılır. Müstəqil Azərbaycanın iqtisadi yüksəlişində baza rolunu oynayan iqtisadi potensial da Ulu Öndər Heydər Əliyevin o illərdəki məqsədyönlü, düşünülmüş, uzaqgörən fəaliyyəti sayəsində təşəkkül taparaq formalaşdı.

Heydər Əliyevin təşəbbüsləri ilə xalqımızın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına da güclü təkan verən tədbirlər həyata keçirildi. Bu mənada o illərdə təkcə sosial-iqtisadi yüksəliş deyil, milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin adı ilə bağlı idi. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən məqsədyönlü siyasət Azərbaycan xalqının milli-mənəvi dəyərlərini xalqın şüurundan silə bilmədi. Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı.

### Ulu Öndər müstəqilliyimizi bütün təhlükələrdən xilas etdi

1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdi. Lakin digər dövlətlərdən fərqli olaraq bizi müstəqilliyə aparan yollar heç də rəvan olmadı. Xalqımız bu yolda qurbanlar verdi, əziyyətlərə qatlaşdı. Üstəlik, ilk vaxtlarda iqtidarda olan siyasi qrupların səbatsızlığı nəticəsində Azərbaycanın hələ kövrək olan müstəqilliyi yenidən itirilmək təhlükəsi qarşısında qalmışdı. Belə bir vəziyyətdə xalqın tələb və istəyi ilə ölkəyə rəhbərliyə gələn Heydər Əliyev müdrikliyi, yenilməz iradəsi, qətiyyəti və böyük siyasi uzaqgörənliyi ilə müstəqilliyimizi bütün təhlükələrdən xilas etdi. Ulu Öndər öz tarixi missiyası ilə müasir Azərbaycan dövlətinin banisinə çevrildi. Heydər Əliyevin dühası, qüdrəti və zəngin dövlətçilik təcrübəsi xalqımızı vahid milli ideya ətrafında birləşdirdi. Beləliklə, müstəqil Azərbaycan dövləti Ulu Öndərin "şah əsəri" kimi dünya birliyində özünün layiqli yerini tutdu.

Heydər Əliyev Xalq Cümhuriyyətinin Azərbaycanın dövlətçilik tarixində rolunu həmişə yüksək qiymətləndirmiş, cümhuriyyətin xalqımızın azadlıq və müstəqillik fikirlərini daha da gücləndirdiyini bildirmişdir. Ulu Öndər tariximizdə Cümhuriyyətin özünəməxsus yeri olduğunu nəzərə alaraq 2003-cü ilin fevral ayında Bakı şəhərində Xalq Cümhuriyyətinin xatirəsinə abidə ucaldılması haqqında sərəncam imzalamışdır.

### Müstəqil siyasət yürüdən dövlət

Son 17 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı fonunda müstəqilliyimizin də möhkəm olduğu daha aydın görünür. Bu qüdrətin göstəriciləri Azərbaycanın bölgənin lider dövləti statusunu qazanması, tam müstəqil siyasət yürütməsi, ərazisində heç bir dövlətin hərbi kontingentinin olmaması, böyük dövlətlərin maraqlarını öz maraqları ilə uzlaşdırması, beynəlxalq tədbirlər mərkəzinə və kosmik klubun üzvünə çevrilməsi, BMT Təhlükəsizlik Şurasına sədrlik etməsi, beynəlxalq enerji təhlükəsizliyi, terrorizmlə mübarizə və digər qlobal məsələlərdə öz sözünü deməsi kimi məsələlərdir. İlham Əliyevin qətiyyətli siyasəti sayəsində yeni neft-qaz layihələrinin uğurla reallaşması, yeni iqtisadi layihələrə start verilməsi Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir. Bütün bunlar həm də Azərbaycanın inamla addımladığı yoldan xəbər verir. Bu yol müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsinə və xalqımızın daha güclü rifahına aparır.

Hər il 28 May - Respublika Günü münasibətilə Prezident İlham Əliyevin adından rəsmi qəbul təşkil olunur. Bu əlamətdar günlə bağlı dövlət başçısı xalqa təbrik ünvanlayır, Bakıda Cümhuriyyətin şərəfinə ucaldılan abidəni ziyarət edir. Bütün bunlar, o cümlədən Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin respublikada dövlət səviyyəsində geniş şəkildə qeyd edilməsi, 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunması İlham Əliyevin milli dövlətçilik tariximizə olan xüsusi diqqət və ehtiramının təcəssümüdür.

Bu gün Azərbaycan dünyada özünün müstəqil siyasəti ilə tanınır. Müstəqil siyasəti isə əsl müstəqil dövlətlər yürüdə bilirlər. Ulu Öndər Heydər Əliyevin xilas edərək möhkəmləndirdiyi, Prezident İlham Əliyevin isə daha da qüdrətləndirdiyi müstəqilliyimiz əbədi və sarsılmazdır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## V.F.Ələsgərovun Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Valeh Feyruz oğlu Ələsgərov Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

## Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinə “Əməkdar mühəndis” fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətlərinə görə aşağıdakı şəxslərə “Əməkdar mühəndis” fəxri adı verilsin:

Əliyev Əli Məmməd oğlu
İsmayılov Nazim Sultan oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

## Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi sahəsində xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda ətraf mühitin qorunmasında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Bayramov Muqabil Tofiq oğlu
Tağıyeva Umayra Rauf qızı

**“Tərəqqi” medalı ilə**

Babaşova Zeynəb Saleh qızı
Cavadov Vaqif Məhəmməd oğlu
Cəfərov Qurban Qafar oğlu
Cəfərov Oqtay Cəfər oğlu
Əkbərov Dünyamalı Fərrux oğlu
Əliyev Mayis Abazər oğlu
Əşrəfov Ramik Yunis oğlu
Həmidova Elmira İsa qızı
İbadov Eldəniz İsmayıl oğlu
Qafarov Rəhim Qafar oğlu
Qaralov Əziz Məmiş oğlu
Məmmədov Vaqif Yaqub oğlu
Məmmədova Sədaqət Zeynal qızı
Mustafayeva Raya Gülbala qızı
Rəhmanov Zəfər Vaqif oğlu
Sadıqova Valentina Viktorovna
Sultan-zadə Firuzə Vəhdət qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

## A.A.Seyidovun Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Arif Akif oğlu Seyidov Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

## Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Arif Alviyə

Hörmətli cənab Prezident.

Kəraçi şəhəri yaxınlığında Pakistan Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 may 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Çin Xalq Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı bildirirəm.

Çin ilə Azərbaycan ənənəvi dost ölkələrdir və hər iki tərəf əsas maraqlarına aid məsələlərdə bir-birini qarşılıqlı olaraq qəti şəkildə dəstəkləyir. COVID-19 pandemiyasının başlanmasından bəri ölkələrimiz müvəqqəti çətinlikləri dəf etmək üçün ikitərəfli münasibətlərdə yüksək səviyyə nümayiş etdirərək, bir-birinə yardım və dəstək göstərirlər.

Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm. Ölkələrimizin və xalqlarımızın rifahı naminə dostluq və əməkdaşlıq münasibətlərinin daim dərinləşməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və bütün işlərinizdə uğurlar, dost Azərbaycana və onun xalqına isə tərəqqi və xoşbəxtlik arzulayıram.

*Dərin hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Gürcüstan xalqı adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırıram.

Bu əlamətdar gündə Gürcüstanın güclü tərəfdaşımız olan Azərbaycan Respublikası ilə dostluq və qarşılıqlı faydalı münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini vurğulamaq istərdim. Əminəm ki, ölkələrimiz arasındakı sıx əməkdaşlıq əlaqələri xalqlarımızın qarşılıqlı mənafeyi naminə daha da dərinləşəcək və güclənəcəkdir.

Bu gün biz qlobal pandemiya ilə üzləşərkən hökumətinizin COVID-19-la mübarizədə göstərdiyi səyləri və əldə edilən uğurları xüsusi vurğulamaq istəyirəm. Mən inanıram ki, ortaq səylərimizlə biz koronavirusun qarşısını ala biləcəyik.

Cənab Prezident, xahiş edirəm Sizə olan ən yüksək ehtiramımla bərabər, dost Azərbaycan xalqına sülh, əmin-amanlıq və tərəqqi arzularımı da qəbul edin.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident, əziz dostum.

Hər bir qürurlu Azərbaycan vətəndaşının, həmçinin azadlığın, müstəqilliyin və vətənpərvərliyin əzəli dəyərlərinə, eyni zamanda, xalqınızın zəngin mənəvi və mədəni irsinə hörmət edən və ölkənizə dost olan hər kəsin bayramı - Respublika Günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Sizin Azərbaycana sevginiz və onun inkişafına bağlılığınız, uzaqgörənliyiniz və dəqiq siyasi fikirləriniz siyasi sabitliyin, iqtisadi modernləşmənin təmin olunmasında, ölkənizin beynəlxalq arenada nüfuzunun və təsirinin möhkəmləndirilməsində müvəffəqiyyətlər əldə etməyinizə, bununla da vətəninizin və vətəndaşlarınızın təhlükəsiz gələcəyini təmin etməyinizə töhfə verir.

İcazə verin, fürsətdən istifadə edərək, xahişimi cavabsız qoymayıb insani və dövlət həmrəyliyi göstərdiyiniz, Azərbaycanın da koronavirus kimi yoluxucu xəstəliklə üzləşdiyi bir zamanda bizim epidemiya ilə mübarizəmizə yardım olaraq Serbiyaya tibbi avadanlıqlar göndərdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirim. Biz Serbiyada bunu yüksək qiymətləndiririk. Bu, bizim üçün ölkələrimiz arasındakı müstəsna strateji əlaqələrin və ən yaxın dost münasibətlərinin, mənim üçün isə hörmət və etibar əsasında qurulmuş şəxsi münasibətlərimizin təsdiqidir. Eyni zamanda, gələcəklə bağlı planlarınızın həyata keçirilməsi üçün ölkənizin və onun vətəndaşlarının epidemiyanın törətdiyi nəticələrdən xilas olmasını səmimi qəlbdən arzu edirəm.

Serbiya Prezidenti olaraq mən Serbiya ilə Azərbaycan arasındakı yaxın münasibətlərlə qürur duyuram. Serbiya vətəndaşları və mən ölkəmizə səfər etmək təklifinə müsbət cavabınızdan məmnun olarıq. İnanıram ki, Sizin səfəriniz Serbiya ilə Azərbaycan arasındakı münasibətlərin tarixində xüsusi iz qoyacaq.

Cənab Prezident, bizim növbəti və ümid edirəm ki, tezliklə baş tutacaq görüşümüzü gözləyərək, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Aleksandr VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

İnanıram ki, Slovakiya ilə Azərbaycan arasında qarşılıqlı maraq doğuran bütün sahələrdəki dostluq münasibətləri və faydalı əməkdaşlıq gələcəkdə də xalqlarımızın rifahı naminə uğurla inkişaf edəcək və biz dünya ölkələrinin birgə mübarizəsinə ehtiyac duyulan hazırkı qlobal pandemiyanın öhdəsindən layiqincə gələcəyik.

Hörmətli cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, ölkənizə və bütün vətəndaşlarınıza tərəqqi və rifah diləyir, sivil və demokratik cəmiyyətinizin daim inkişaf etməsini arzulayıram.

*Hörmətlə,*

***Zuzana ÇAPUTOVA,***
***Slovakiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramının qeyd olunması münasibətilə Zati-alinizə İspaniya hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıram.

Sizə dərin hörmət və ehtiram bəslədiyimə əmin ola bilərsiniz.

***VI FELİPE,***
***İspaniyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə təbriklərimi və Azərbaycan xalqının rifahı üçün ən xoş arzularımı çatdırım.

Bu bayramı qeyd etdiyimiz ərəfədə COVID-19 pandemiyasının hamımız üçün misli görünməmiş çağırış olduğunu da bildirmək istəyirəm.

Koronavirusa qalib gəlmək üçün birgə səylərimizi davam etdirdiyimiz bir vaxtda Sizə, hökumətinizə, eləcə də bütün Azərbaycan xalqına güc, qüvvət və cansağlığı diləyirəm.

*Hörmətlə,*

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Hindistan ilə Azərbaycan arasında yaxın mədəni və tarixi əlaqələr mövcuddur ki, bu, ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi niyyətimizdə özünü göstərir. Ümid edirəm ki, birgə səylərimiz çoxistiqamətli əməkdaşlığımızı daha da gücləndirəcəkdir.

COVID-19 pandemiyası bəşəriyyət üçün misli görünməmiş bir təhlükə yaradır. Hindistan bu xəstəliyə qalib gəlmək üçün beynəlxalq ictimaiyyətlə birgə fəaliyyət göstərməkdə davam edəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Ram Nat KOVİND,***
***Hindistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını səmimi qəlbdən təbrik etməkdən məmnunluq duyuram. Zati-alinizə Uca Allahdan möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycan Respublikası ilə sıx əlaqələri, ölkənizin İƏT-ə dəstəyini, təşkilatın yaradılmasının məqsədi olan İslam həmrəyliyinin təbliğində rolunu yüksək qiymətləndirir. İƏT üzv ölkələr arasında birgə dəyərləri təbliğ etmək, qarşılıqlı əməkdaşlığı gücləndirmək üçün səylərini davam etdirəcək.

Mən ümidvaram ki, Zati-aliniz üzv ölkələrin xalqları arasında əməkdaşlığın və İslam həmrəyliyinin möhkəmləndirilməsinə dəstəyini və töhfələrini bundan sonra da əsirgəməyəcəkdir.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Yusif bin Əhməd ƏL-OSAYMİN ,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş Katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə Fələstin Dövləti və xalqı adından və şəxsən öz adımdan Sizə, Sizin şəxsinizdə hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi yetirirəm.

Allah-təaladan Sizə, ölkənizə və xalqınıza xeyir-bərəkət, tərəqqi, dünyanın bütün xalqlarına isə koronavirus bəlasından və bütün digər bəlalardan sağ-salamat çıxmağı arzulayıram.

Xahiş edirəm, dərin hörmət və ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti,***
***Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Qardaş Azərbaycanın bundan sonra da dinamik inkişaf etməsini, həmçinin xalqınızın Sizin rəhbərliyinizlə bütün məqsədlərinə çatmasını diləyir və ən səmimi arzularımı bildirirəm.

Əminəm ki, xalqlarımız arasında əsrlər boyu davam edən ənənəvi dostluq və əməkdaşlıq bundan sonra da hərtərəfli möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və böyük uğurlar, Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Katibliyi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Türk dünyasında ilk respublika olan Azərbaycan Zati-alinizin rəhbərliyi ilə böyük uğurlar qazanaraq gündən-günə inkişaf edir. Əminəm ki, bu davamlı inkişaf yeni nailiyyətlərə yol açacaq.

Əminliklə qeyd etmək istərdim ki, Sizin məqsədyönlü fəaliyyətiniz nəticəsində türkdilli ölkələr arasında əməkdaşlıq daha da dərinləşərək inkişaf etməkdədir. Bu əməkdaşlığa parlamentlərarası səviyyədə töhfəsini verən TÜRKPA Katibliyinə daim göstərdiyiniz hərtərəfli diqqət və dəstəyinizə görə Sizə minnətdaram.

Fürsətdən istifadə edərək, həmçinin müqəddəs Ramazan bayramı münasibətilə Zati-alinizi təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

*Yüksək hörmət və ehtiramla,*

***Altınbek MAMAYUSUPOV,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş Katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

TÜRKSOY-un Baş Katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını milli bayram - Respublika Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı Zati-alinizin TÜRKSOY-a göstərdiyi qayğını və dəstəyi, ortaq türk mədəniyyətinin inkişafında və təbliğ olunmasında rolunu yüksək qiymətləndirir.

Əmin ola bilərsiniz ki, TÜRKSOY təşkilatı ilə Azərbaycan Respublikası arasında mədəniyyət sahəsində əməkdaşlıq münasibətləri yüksələn xətt üzrə davam etdiriləcək və TÜRKSOY çərçivəsində həyata keçiriləcək beynəlxalq tədbirlərdə Azərbaycan mədəniyyəti, incəsənəti layiqincə təmsil olunacaqdır.

Fürsətdən istifadə edərək, həmçinin müqəddəs Ramazan bayramınızı təbrik edir, Zati-alinizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq, tərəqqi arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Düsen KASEİNOV,***
***TÜRKSOY-un Baş Katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm, işlərinizdə uğurlar, möhkəm cansağlığı arzulayıram.

Tarixi 1918-ci ildən başlayan və 1991-ci ildə bərpa olunan Azərbaycanın müstəqilliyi uzun yol keçmişdir.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması təhlükə ilə üzləşən müstəqilliyimizi qoruyub saxladı. Qısa bir zamanda Azərbaycanda böyük dəyişikliklər baş verdi, ölkəmiz bölgədə aparıcı dövlətə çevrildi. Böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəyə barış və inkişaf gətirdi.

Siz Heydər Əliyev siyasətinə və dəyərlərinə yeni nəfəs gətirərək Azərbaycanda dünya əhəmiyyətli layihələrin həyata keçməsinə nail oldunuz. Bu gün Sizin həyata keçirdiyiniz islahatlar ölkəmizin inkişafına yönəldilir və Azərbaycan dünyanın aparıcı dövlətlərinin sırasında özünə layiq yer tutur.

Sizin xalqa arxalanaraq Azərbaycanın bütövlüyü uğrunda həyata keçirdiyiniz fövqəladə vacib siyasətiniz ölkəmizin hər bir vətəndaşı tərəfindən dəstəklənir. Bu istiqamətdə apardığınız fəaliyyətdə Sizə böyük uğurlar, cansağlığı və ailə səadəti arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş Katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Beynəlxalq Türk Akademiyasının rəhbərliyi adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan və ən xoş arzularımı bildirməkdən şərəf duyuram.

Müstəqil Azərbaycan Respublikası Sizin yorulmaz fəaliyyətiniz sayəsində sosial-iqtisadi sahədə, dövlət quruculuğunda və beynəlxalq aləmdə sanballı uğurlar qazanaraq dünya birliyinin fəal və nüfuzlu üzvünə çevrilib.

COVID-19 pandemiyasının yayılması ilə bağlı yaranmış mövcud şəraitdə Sizin təşəbbüsünüzlə türkdilli dövlətlərin proseslərə çevik reaksiya göstərməsi və böhran şəraitində dərin həmrəylik nümayiş etdirməsi beynəlxalq ictimaiyyət üçün əsl örnək oldu.

Bu xoş fürsətdən istifadə edərək Sizi bir daha ürəkdən təbrik edir, zati-alinizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Darxan KIDIRƏLİ,***
***Beynəlxalq Türk Akademiyasının prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Biz Azərbaycan Respublikasının milli bayramının, müstəqilliyinin elan edilməsinin 102-ci ildönümünün qeyd olunmasında Azərbaycan xalqının sevincini bölüşür, Zati-alinizə və Birinci vitse-prezidentə təbriklərimizi çatdırırıq. Dünyanın üzləşdiyi maneələrə və çağırışlara baxmayaraq, Azərbaycanın ötən 28 il ərzində nail olduğu çox böyük inkişafı yüksək dəyərləndiririk.

Biz Sizə və Azərbaycan xalqına ən xoş arzularımızı çatdırırıq. Ümid edirik ki, ölkəniz bütün bəşəriyyətin koronavirus xəstəliyi ilə mübarizə apardığı bu çətin dövrdə sülh, tərəqqi və inkişaf yolu ilə irəliləməkdə davam edəcək. Biz Sizin rəhbərliyinizlə ölkənizin təkcə virusun yayılmasının qarşısının alınması, xəstəliyin təsirinin aradan qaldırılması üçün atdığı qətiyyətli addımları deyil, həmçinin digər ölkələrdə bu pandemiya ilə mübarizədə köməyə ehtiyacı olan insanlara etdiyi yardımı da yüksək dəyərləndirdiyimizi bildiririk.

Zati-aliləri, biz, həmçinin məmnuniyyətlə qeyd etmək istəyirik ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hər zaman olduğu kimi, qarşılıqlı dəstək ruhunda bir çox yerlərdə irəli sürülən çoxsaylı təşəbbüslərdə fəal tərəfdaş olub. Pandemiyanın səbəb olduğu hərəkət məhdudiyyətlərinə baxmayaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi 27 ölkədə ehtiyac duyanlara dəstək olub, əsas tutduğu dəyərlərə sadiq qalıb.

Cənab Prezident, bu fürsətdən istifadə edərək, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılmasına, inkişafına və beynəlxalq səviyyədə tanınmasına yaxından diqqət göstərdiyinizə görə Sizə ürəkdən təşəkkürlərimizi bildiririk. İnanırıq ki, biz birlikdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzini gücləndirməkdə davam edəcəyik və daha çox uğura nail olacağıq.

Xahiş edirəm Sizə olan ən yüksək ehtiramımızı qəbul edin.

*Səmimiyyətlə,*

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1999-2007-ci illərdə Latviya Respublikasının sabiq Prezidenti***
***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***
***Türki bin Feysəl bin Əbdüləziz AL SAUD,***
***Kral Feysəl Fondunun İslam Araşdırmalar Mərkəzinin sədri***
***Kerri KENNEDİ,***
***Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti***
***Jefri SAKS,***
***Kolumbiya Universitetinin Davamlı İnkişaf Mərkəzinin direktoru, professor***
***Helen KLARK,***
***1999-2008-ci illərdə Yeni Zelandiyanın Baş Naziri,***
***2009-2017-ci illərdə BMT İnkişaf Proqramının əlaqələndiricisi***
***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın sabiq Prezidenti***
***İv LETERME,***
***2008, 2009-2011-ci illərdə Belçikanın Baş Naziri***
***Kailaş SATYARTİ,***
***Nobel Sülh mükafatı laureatı, Kailaş Satyarti Uşaq Fondunun təsisçisi***
***Noelen HEYZER,***
***2007-2014-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini***
***Natali QULE,***
***“Societer” təşkilatının həmtəsisçisi və tərəfdaşı***
***Marianna VARDİNOYANNİS,***
***UNESCO-nun xoşməramlı səfiri***
***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***
***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi***
***Eka TKELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş Nazirinin müavini***
***Laimdota STRAUYUMA,***
***2014-2016-cı illərdə Latviyanın Baş Naziri***
***Valdis ZATLERS,***
***2007-2011-ci illərdə Latviyanın Prezidenti***
***Tzipi LİVNİ,***
***2006-2009-cu illərdə İsrailin Xarici İşlər naziri***
***Peter MEDGYESSİ,***
***2002-2004-cü illərdə Macarıstanın Baş Naziri***
***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş Naziri,***
***2012-2015-ci illərdə Xarici İşlər naziri***
***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***
***Viktor YUŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın Prezidenti***
***Katerina YUŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın birinci xanımı,***
***“Ukrayna 3000” Beynəlxalq Xeyriyyə Fondunun Müşahidə Şurasının rəhbəri***
***Mladen İVANİÇ,***
***2014-2018-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***
***Rəşid ALİMOV,***
***2016-2019-cu illərdə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***
***Jozef MUSKAT,***
***2013-2020-ci illərdə Maltanın Baş Naziri***
***Yadranka KOSOR,***
***2009-2011-ci illərdə Xorvatiyanın Baş Naziri***
***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Baş Naziri***
***Stepan MESİÇ,***
***2000-2010-cu illərdə Xorvatiyanın Prezidenti***
***Mirko SVETKOVİÇ,***
***2008-2012-ci illərdə Serbiyanın Baş Naziri***
***Sali BERİŞA,***
***1992-1997-ci illərdə Albaniyanın Prezidenti***
***2003-2015-ci illərdə Albaniyanın Baş Naziri***
***Recep MEİDANİ,***
***1997-2002-ci illərdə Albaniyanın Prezidenti***
***Buyar NİŞANİ,***
***2012-2017-ci illərdə Albaniyanın Prezidenti***
***Jan Ömər BERİZİKİ,***
***2011-2014-cü illərdə Madaqaskarın Baş Naziri***
***Daliya İTZİK,***
***İsrailin sabiq Prezidenti***
***Elza PAPADEMETRU,***
***Yunanıstan parlamentinin sabiq vitse-prezidenti***
***Rozalia Artega SERRANO,***
***Ekvadorun sabiq Prezidenti***
***Giorgi MARQVELAŞVİLİ,***
***2013-2018-ci illərdə Gürcüstanın sabiq Prezidenti***
***Emil KONSTANTİNESKU,***
***1996-2000-ci illərdə Rumıniyanın sabiq Prezidenti***
***Şövkət ƏZİZ,***
***2004-2007-ci illərdə Pakistanın Baş Naziri***
***Jomart OTORBAYEV,***
***Qırğızıstanın sabiq Baş Naziri***
***Rövşən MURADOV,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Baş katibi***

# Azərbaycanın Baş Naziri ilə İranın Birinci vitse-prezidenti arasında telefon danışığı olub

Mayın 21-də İran tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov və İran İslam Respublikasının Birinci vitse-prezidenti İshaq Cahangiri arasında telefon danışığı olub.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Telefon danışığı əsnasında koronavirus (COVID-19) infeksiyasının qarşısının alınması məqsədilə iki ölkə tərəfindən görülən uğurlu tədbirlərə dair məlumat mübadiləsi aparılıb.

İran tərəfi pandemiyaya qarşı mübarizə məqsədilə göstərilən humanitar yardıma görə Azərbaycana təşəkkürünü bildirib.

Yükdaşımalarının fasiləsiz şəkildə həyata keçirilməsini təmin etmək üçün nəqliyyat dəhlizləri çərçivəsində görülən işlər xüsusi vurğulanıb.

İran tərəfi pandemiya dövründə İran vətəndaşlarının Azərbaycan ərazisindən öz ölkələrinə qayıtmaları üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib. İran tərəfi mayın 22-də daha 120 İran vətəndaşının Astara keçid məntəqəsindən öz ölkələrinə qayıtmaları barəsində məlumatlandırılıb.

İran tərəfi Azərbaycanda məhkum olunan İran vətəndaşlarının humanizm prinsiplərinə əsaslanaraq ekstradisiyasının mümkünlüyünü nəzərdən keçirməyi bir daha xahiş edib.

Telefon danışığı əsnasında qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

# Milli Məclisin deputatı Sahibə Qafarova videokonfrans formatında seçicilərin növbəti qəbulunu keçirib





**98 saylı Şəmkir şəhər seçki dairəsindən millət vəkili, Milli Məclisin Sədri Sahibə Qafarova videokonfrans formatında seçicilərin növbəti qəbulunu keçirib.**

Videoqəbulda millət vəkili seçicilərin xəstəliyə görə müavinətlərin təyin olunması, Şəmkirdə sosial evlərin tikilməsi, fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsinin ayrılması, yolların asfalt örtüyünün yenilənməsi, “Varlı həyat” kəndinin qazlaşdırılması, Çinarlı qəsəbəsi 1 saylı orta məktəbin binasının əsaslı təmiri və digər məsələlərlə əlaqədar müraciətlərini dinləyib. Videoqəbulda seçicilər tərəfindən qaldırılan bəzi məsələlər yerli xarakterli olduğundan baxılması üçün görüşdə iştirak edən icra hakimiyyəti nümayəndələrinə yönləndirilib. Bir sıra digər müraciətlərin araşdırılması üçün aidiyyəti orqanlara sorğular göndərilib.

Görüşdə iştirak edən seçicilər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətinin uğurlarını qeyd edərək, Şəmkir rayonunda da sosial infrastruktur layihələrinin reallaşdırıldığını diqqətə çatdırıblar. Vurğulanıb ki, dövlət başçısı əhalinin sosial müdafiəsinin gücləndirilməsinə daim diqqət göstərir, bununla bağlı mühüm tədbirlər həyata keçirilir. Həmçinin bildirilib ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların problemlərinə həssaslıqla yanaşan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti vətəndaşlar tərəfindən təqdir olunur, yüksək qiymətləndirilir.

Videoqəbulda millət vəkili S.Qafarovanın seçicilər tərəfindən qaldırılan bəzi məsələlərin həlli ilə beşinci çağırış Milli Məclisin üzvü kimi məşğul olduğu, onun istər Milli Məclisin plenar iclaslarında çıxışları zamanı, istərsə də müvafiq dövlət qurumlarına müraciətlərində seçicilərin qaldırdıqları məsələlərin əks olunduğu vurğulanıb.

S.Qafarova videoqəbulda iştirak edən bütün seçiciləri ölkəmizdə koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl etməyə, mövcud vəziyyətlə əlaqədar zəruri sosial davranış, şəxsi gigiyena və tibbi-profilaktik qaydalara əməl etməyə, sosial məsafəyə riayət etməyə, zərurət olmadığı halda evdən çıxmamağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa çağırıb.

Millət vəkili qarşıdan gələn Ramazan bayramı və 28 May - Respublika Günü münasibətilə seçiciləri təbrik edib, videokonfrans vasitəsilə görüşlərin gələcəkdə də davam etdiriləcəyini bildirib.

***Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# Prezidentin köməkçisi Hikmət Hacıyev “RİA Novosti”də təhrif olunmuş və qərəzli xəbər yayılmasına münasibət bildirib



2020-ci il mayın 21-də Rusiya Federasiyasının dövlət informasiya agentliyi olan “RİA Novosti”də Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş ərazisində yaradılmış qeyri-qanuni rejimin qondarma “prezidenti”nin “andiçmə” mərasiminə dair təhrif olunmuş və qərəzli xəbər yayılıb.

“RİA Novosti” tərəfindən qondarma seçkilər və “andiçmə” mərasimi haqqında Azərbaycan Respublikasının rəsmi dövlət qurumlarının açıqlamaları, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının bəyanatları verilmədiyi halda qanunsuz rejimə aid xəbərlər geniş yayılır.

Bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “RİA Novosti” agentliyində “Prezident nepriznannoy Naqorno-Karabaxskoy respubliki vstupil v doljnostğ” başlığı altında verilmiş xəbərlə bağlı AZƏRTAC-a şərhində bildirib.

Hikmət Hacıyev deyib ki, Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayon işğal olunub. Etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. İşğal olunmuş ərazilərdə Ermənistan tərəfindən kriminal rejim yaradılıb.

Azərbaycan Respublikasının suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü bütün dünya ölkələri, o cümlədən Rusiya Federasiyası tərəfindən tanınır. Bu mövqe BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində də təsbit olunub. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində 2020-ci ilin 31 mart və 14 aprel tarixlərdə qeyri-qanuni olaraq təşkil edilmiş qondarma “prezident seçkiləri” beynəlxalq ictimaiyyət, o cümlədən Rusiya daxil olmaqla ATƏT-in Minsk qrupunun həmsədr ölkələri, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, Türk Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən tanınmayıb, rədd edilib və onun “nəticələri” heç bir hüquqi qüvvəyə malik deyil.

Prezidentin köməkçisi deyib: “RİA Novosti”yə bildirmək istərdik ki, mətndə istifadə olunan “Dağlıq Qarabağ Respublikası” və ya “Dağlıq Qarabağ Respublikası”nın “mərkəzi seçki komissiyası”, “prezidenti” kimi ifadələr yanlışdır, işğal və qanlı etnik təmizləmə nəticəsində yaradılmış qanunsuz rejimi təşviq etmək cəhdlərindən başqa bir şey deyildir. Bu xəbərdə işğal altında olan tarixi Azərbaycan şəhəri Şuşanın adı təhrif olunaraq “Şuşi” kimi verilib. Şuşa şəhəri 1992-ci ildə işğal edilib.

“Birinci hal deyil ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi Rusiyanın rəsmi mövqeyinə zidd olaraq dövlət informasiya agentliyi olan “RİA Novosti” tərəfindən belə qərəzli redaksiya siyasəti yürüdülür. Bu qəbildən olan qərəzli xəbərlərin yayılması Azərbaycan və Rusiya arasında olan strateji tərəfdaşlıq və dostluq əlaqələrinin ruhuna ziddir, Azərbaycan xalqının, xüsusilə məcburi köçkünlərin həssas hisslərinə toxunur.

Dezinformasiya və saxta xəbərlərin geniş yayıldığı müasir dövrdə “RİA Novosti”ni xəbərdə düzəliş etməyə çağırırıq. Eyni zamanda ümidvar olmaq istərdik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar gələcək xəbərlərin verilməsində “RİA Novosti” siyasi-hüquqi və terminoloji baxımdan düzgünlüyü, obyektiv faktları və qərəzsizliyi əsas tutacaq”.

# Baş Prokurorluqda yeni vəzifəyə təyin olunmuş kadrlar kollektivə təqdim ediliblər

Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi Aparatın rəhbər heyətinin iştirakı ilə Baş prokurorun yeni təyin olunmuş birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavinləri Elmar Camalov və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov kollektivə təqdim ediliblər.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə prokurorluq orqanlarına göstərdiyi gündəlik diqqət və qayğıya görə təşəkkürünü bildirərək prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rüstəm Usubova və Namiq Əsgərova “Əməkdar hüquqşünas” fəxri adının verilməsinin dövlət başçısı tərəfindən Azərbaycan Prokurorluğuna verilən yüksək qiymətin göstəricisi olduğunu xüsusi vurğulamaqla yeni təyin edilən şəxslərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə iştirak edən Rüstəm Usubov və Namiq Əsgərov fəaliyyətlərinə verilən yüksək qiymətə görə dövlət başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkürlərini bildirib, xidmət illəri ərzində xalqa və dövlətə sədaqət prinsiplərini rəhbər tutduqlarını, vətənpərvərlik və peşəkarlıq irsinin daim uca tutulduğu prokurorluq orqanlarında xidmət etməkdən şərəf duyduqlarını ifadə ediblər.

Göstərilən yüksək etimada görə Elçin Məmmədov, Elmar Camalov, və Nazim Rəcəbov dövlət başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür edərək, fəaliyyətlərində şəffaflıq və dürüstlük prinsiplərini daim uca tutacaqlarını diqqətə çatdırıblar.

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası olub

**Mayın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, komitə sədri Tahir Mirkişili iclasda Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinin təsdiq edilməsi haqqında, “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında 2008-ci il 19 may tarixli Sazişə dəyişikliklər və əlavələr edilməsi barədə” Protokolun təsdiq edilməsi haqqında və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılacağını bildirib.

Tahir Mirkişili öz çıxışında söyləyib ki, Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi Azərbaycanla Türkiyə arasında imzalanmış ən mühüm sənədlərdən biridir. 2019-cu ilin məlumatlarına görə, Türkiyə Azərbaycanın xarici ticarət tərəfdaşları arasında ikinci yerdə durur. Keçən dövr ərzində Azərbaycan ilə Türkiyə arasında xarici ticarət dövriyyəsi 33 faiz artaraq, 4.5 milyard dollara çatıb. Azərbaycanın ixracında da Türkiyə çox mühüm yer tutur. 2019-cu ildə Azərbaycanın bu ölkəyə ixracı 36 faiz artaraq 2.9 milyard dollar təşkil edib. 2017-ci ildən etibarən Azərbaycan Türkiyə ilə xarici ticarət dövriyyəsində hər zaman müsbət saldoya malik olub. 2019-cu ildə bu saldo rekord şəkildə artaraq 1.2 milyard dollara çatmışdır. Azərbaycan Türkiyə iqtisadiyyatına 8.5 milyard dollar, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12.5 milyard dollar investisiya yatırıb.

Qeyd olunub ki, Preferensial Sazişin imzalanması Azərbaycanın qeyri-neft sektorunda ixracının artmasında mühüm rol oynayacaq. Sazişdə 15 mal qrupu üzrə hər iki ölkə arasında həm kvota, həm də rüsumun sıfıra endirilməsi ilə bağlı mühüm müddəalar öz əksini tapıb.

Sonra İqtisadiyyat Nazirliyinin Ticarət siyasəti və Ümumdünya Ticarət Təşkilatı şöbəsinin müdiri Xəzər Bəşirov Azərbaycan və Türkiyə arasında Preferensial Ticarət Sazişi barədə məlumat verib. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişinin məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, para-tariflərin və qeyri-tarif maneələrinin ləğv olunması, iqtisadi əlaqələrin harmonik inkişafı vasitəsilə ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılmasıdır.

Sənədə əsasən tərəflərin nümayəndələrindən ibarət Birgə Komitə təsis edilib. Bu komitə əldə olunan irəliləyişin nəzərdən keçirilməsi üçün ildə ən azı bir dəfə görüş keçirəcək. Saziş müddətsiz olaraq bağlanıb və tərəflərdən birinin diplomatik kanallar vasitəsilə onu ləğv etmək barədə niyyətini bildirənədək etibarlıdır.

Deputatlar Əli Məsimli, Vüqar Bayramov Preferensial Saziş barədə öz fikirlərini açıqladılar, sənədin iki ölkə arasında münasibətlərin inkişafında əhəmiyyətindən danışdılar.

Növbəti məsələ ilə bağlı bildirilib ki, “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında 2008-ci il 19 may tarixli Sazişə dəyişikliklər və əlavələr edilməsi barədə” Protokol 2020-ci il martın 11-də Bakı şəhərində imzalanıb. Bu Protokol Sazişin ayrılmaz hissəsidir və tərəflərin onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən 30 gün sonra qüvvəyə minir. Protokol Sazişlə eyni vaxtda qüvvədən düşür.

Sonra “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verildi. Bildirildi ki, sənəd “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, Gömrük Məcəlləsində, “Balıqçılıq haqqında”, “Yeyinti məhsulları haqqında”, “Taxıl haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” 2019-cu il 12 iyul tarixli 1662-VQD nömrəli qanunun icrasının təmin edilməsi məqsədilə hazırlanıb.

Həmin qanunla xüsusi ad verilən şərabçılıq məhsulunun dövlət reyestrində qeydiyyatı və dövlət reyestrində qeydiyyata alınmış şərabçılıq məhsulunun istehsalçılarının attestasiyası sistemi ləğv edildiyindən “Dövlət rüsumu haqqında” qanunun 18.62.2-ci və 18.62.3-cü maddələrinin ləğvi təklif olunur. Bununla da şərabçılıq məhsullarına adların verilməsi dövlət rüsumu tutulmaqla “Üzümçülük və şərabçılıq haqqında” qanunla müəyyən edilmiş qaydada yalnız ekspertiza yolu ilə tənzimlənəcəkdir.

Deputatlar hər üç qanun layihəsini Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Layihələrin müzakirəsindən sonra komitə üzvləri cari məsələlərlə bağlı fikir mübadiləsi apardılar. Komitə sədri Tahir Mirkişili, deputatlar Rüfət Quliyev, Məşhur Məmmədov, Məzahir Əfəndiyev, Elnur Allahverdiyev ölkədəki ictimai-siyasi durum, iqtisadi inkişaf, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı mülahizələrini bölüşüblər.

# Azərbaycanın və Ukraynanın Xarici İşlər nazirləri arasında telefon danışığı olub

Mayın 22-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov ilə Ukrayna Xarici İşlər naziri Dmitro Kuleba arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər mövcud qlobal pandemiya ilə bağlı vəziyyətə toxunaraq sağlamlıq böhranı ilə mübarizədə dövlətlər tərəfindən görülən tədbirlərə dair fikir mübadiləsi aparıblar. Mövcud vəziyyətdə qarşılıqlı dəstək və həmrəyliyin əhəmiyyətini vurğulayıblar.

Nazirlər ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edərək ölkələr arasında xüsusilə iqtisadi və enerji sahələrində əlaqələrin inkişafını, eləcə də tərəflərin milli maraqlarına uyğun olaraq nəqliyyat, tranzit və logistika sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Azərbaycan və Gürcüstanın Xarici İşlər nazirləri telefonla danışıblar

**Mayın 22-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Gürcüstanın Xarici İşlər naziri David Zalkaliani arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər mövcud qlobal pandemiya ilə mübarizə çərçivəsində hər iki ölkə tərəfindən həyata keçirilən tədbirlər üzrə ümumi fikir mübadiləsi aparıb və bu xüsusda beynəlxalq həmrəyliyin əhəmiyyətini vurğulayıblar.

Telefon danışığı zamanı ikitərəfli strateji münasibətlərin inkişafı, o cümlədən iqtisadi və ticarət əlaqələrinin, xüsusilə də hazırkı vəziyyətdə yükdaşımaların genişləndirilməsi və strateji layihələrin həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Nazirlər, habelə beynəlxalq təşkilatlar, xüsusilə də BMT və Şərq Tərəfdaşlığı çərçivəsində münasibətlər də daxil olmaqla, həyata keçirilən əməkdaşlıq məsələlərindən bəhs ediblər.

Nazirlər Azərbaycan və Gürcüstan xalqları arasında möhkəm dostluq münasibətlərini vurğulayaraq, bir-birlərini qarşıdan gələn milli günlər münasibətilə təbrik ediblər.

# Cəbhəboyu zonada yeni tikilən hərbi hissələrin açılışı və tikintisi davam etdirilən obyektlərə baxış




Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yeni tikilmiş hərbi hissələrin açılışında iştirak edib və inşası davam etdirilən obyektlərə baxış keçirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasim iştirakçıları istifadəyə verilən qərargah binaları, əsgər yataqxanaları və yeməkxanalar, tibb məntəqələri, idman şəhərcikləri, sıra meydanları, döyüş texnikaları üçün saxlanclarda yaradılan şəraitlə maraqlanıblar.

Bildirilib ki, IP mühafizə və IP videomüşahidə sistemləri, yanğın əleyhinə siqnalizasiya və daxili rabitə sistemləri quraşdırılmış qərargah binaları tam şəkildə mebel və avadanlıqlarla təchiz edilib. Qərargah binalarında ideoloji otaq, brifinq, akt zalları və digər xidməti iş otaqları istifadəyə verilib.

Ərazidə inşa olunan yataqxana binaları da mebel və inventarlarla təmin edilib. Burada iş, məişət və digər xidməti otaqlar istifadəyə verilib. Binada yanğından mühafizə və daxili rabitə sistemləri quraşdırılıb. Hərbi hissənin ərazisindəki tibb məntəqələri müasir standartlara cavab verən tibbi avadanlıqla təmin olunub.

Şəxsi heyətin rahat və keyfiyyətli qidalanmasının təşkili məqsədilə geniş yeməkxanalar lazımi avadanlıqlarla təchiz edilib. Ərzaq anbarlarında soyuducu kamera və digər ərzaq saxlama otaqları, əşya anbarında isə əmlak saxlama otaqları mövcuddur. Ərazidə yaşıllıq zolaqları salınıb, müxtəlif növ ağaclar, dekorativ kollar əkilib, yollara asfalt salınıb, qaz və yüksək gərginlikli elektrik xətləri çəkilib.

Qeyd edək ki, Azərbaycan Ordusunun sərəncamında olan hərbi obyektlərdə tikinti, yenidənqurma, təmir işlərinin 90 faizi artıq başa çatdırılıb və növbəti illərdə bu işlərin tam yekunlaşdırılması planlaşdırılır. Bildirilib ki, hərbi qulluqçular və onların ailə üzvləri üçün nəzərdə tutulan yataqxanaların tikintisi davam etdirilir və Ali Baş Komandanın tapşırığına əsasən bu istiqamətdə işlər bundan sonra da həyata keçiriləcək.

Burada yaradılan şəraitlə tanışlıqdan sonra Müdafiə naziri hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, inşaat işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# 28 May Respublika Günüdür

## Şərəf və ləyaqət tariximiz

Əvvəli 1-ci səh.

1918-ci il iyulun 16-da Gəncəyə köçən Azərbaycan Milli Şurası və hökumətdə milli qüvvələr arasında müəyyən fikir ayrılığı yarandı.

Siyasi böhranı aradan qaldırmaq üçün Gəncədəki türk qoşunlarının rəhbərliyi ilə hadisələr başqa cür cərəyan edirdi. Türkiyə ilə Antanta dövlətləri arasında 1918-ci il 30 oktyabr tarixli Mudros müqaviləsinə görə məğlub sayılan Osmanlı qüvvələri Bakını tərk etməli, Antanta qüvvələri tərəfindən Bakının tutulmasına mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. İranın Ənzəli limanında yerləşən ingilis hərbi hissələri müttəfiqlər adından Bakını tutmalı idi. Ənzəliyə danışıqlar aparmaq üçün gələn Azərbaycan nümayəndə heyəti ingilis hərbi hissələrinin komandanı general Tomsona Azərbaycan ərazisinə daxil olmazdan əvvəl AXC-ni tanımaq haqqında bəyanat verilməsini təklif etdi. Lakin general Tomson bu təklifi rədd etdi və bildirdi ki, "Azərbaycan Respublikası türklərin intriqası nəticəsində yaranmışdır və xalq arasında heç bir dayağa malik deyildir. Bir halda ki, siz bunun əksini iddia edirsiniz, o halda hər şeyi yerində yoxlayıb, buna münasib də qərar verərik. Müttəfiqlər dağıtmaq üçün yox, qurmaq üçün gəliblər". V.Tomson bəyanat verərək elan etdi ki, noyabrın 17-si səhər saat 10-a qədər Bakı şəhəri Azərbaycan və türk ordularından təmizlənməlidir. Belə də oldu. Noyabrın 17-də ingilis hərbi hissələrinin komandiri Tomson Bakıya daxil oldu. Milli Şura hazırkı fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar özünü parlamentə çevirməyi qərara aldı. Qanunların hazırlanması üzərində işləyən müvafiq komissiyanın Azərbaycan parlamentinin yaradılması haqqında qanun layihəsi Milli Şura tərəfindən 1918-ci il noyabrın 20-də qəbul edildi.

Noyabrın 16-da Milli Şura beş aylıq fasilədən sonra yenidən fəaliyyətə başladı. Azərbaycan hökuməti təhrikçi hücumlara baxmayaraq, dövlət quruculuğu işini davam etdirir, parlamentin açılışına hazırlaşırdı.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti təntənəli iclasla açıldı. F.X.Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Ciddi müzakirələrdən sonra Türkiyədə danışıqlar aparan Ə.M.Topçubaşov parlamentin sədri, H.Ağayev sədrin birinci müavini, R.Vəkilov isə katib seçildilər. Parlamentin qarşısında duran mühüm vəzifələrdən biri yeni hökuməti təşkil etmək idi. Hökumətin təşkili yenidən F.X.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi. Koalisyon hökumətin tərkibində 3 nəfər rus var idi, ermənilər isə onlara təklif olunan 2 nazir kürsüsündən imtina etdilər.

Birinci Dünya müharibəsində qalib gələn dövlətlər dünyanın siyasi xəritəsini müəyyən etmək üçün Parisdə beynəlxalq sülh konfransının çağırılmasına qərar verdilər.

Konfransda iştirak etmək üçün Topçubaşovun idarə etdiyi Azərbaycan nümayəndə heyəti üç aylıq gərgin diplomatik-siyasi mübarizədən sonra mayın əvvəllərində Parisə gedib çıxa bildi. Mayın 28-də Azərbaycan nümayəndə heyətini ABŞ prezidenti V.Vilson qəbul etdi. Vilsona təqdim edilmiş memorandumda Azərbaycan Respublikasının yaranma tarixi, onun bir ildə azadlıq yolunda verdiyi qurbanlardan bəhs olunurdu. V.Vilson Azərbaycan nümayəndə heyətini soyuq qarşıladı, nümayəndə heyətinə konfederasiya ideyasını müdafiə etməyi, Millətlər Cəmiyyətinin mandatı ilə böyük dövlətlərdən birinin bu konfederasiya üzərində qəyyumluğunu qəbul etməyi məsləhət gördü.

Nəhayət, 1920-ci il yanvarın 11-də Parisdə Müttəfiq Dövlətlərin Ali Şurası Azərbaycanın istiqlaliyyətinin de-fakto tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Yanvarın 14-də bu xəbər Azərbaycana çatdırıldı və parlament onu təntənəli şəkildə qeyd etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin de-fakto tanınmasına qədər dövlət quruculuğu sahəsində heç bir təcrübəsi olmayan xalq qısa bir müddət ərzində normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə, o cümlədən, Türkiyə, Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya və başqaları ilə baş konsulluq, konsul agentlikləri səviyyəsində əlaqələr qurmağa nail oldu. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşu parlamentli respublika idi. Yeni yaranmış dövlət öz fəaliyyəti dövründə "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyası uğrunda mübarizə aparırdı. Hökumət Gəncədəki fəaliyyəti dövründə - 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında fərman imzaladı. Azərbaycan dilli savadlı kadrların çatışmazlığı nəzərə alınaraq, dövlət idarələrində müvəqqəti olaraq rus dilindən də istifadə olunmasına icazə verildi. İyunun 24-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu. Avqustun 11-də ümumi hərbi səfərbərlik elan edildi və 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Sentyabrın 1-də Hərbiyyə nazirliyinin yaradılması haqqında qərar qəbul olundu. Dekabrın 25-də general Səmədağa Mehmandarov hərbi nazir, general Əliağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sülkeviç Baş qərargah rəisi təyin edildilər.

1919-cu ildə 25 min nəfərlik Milli ordu yaratmaq məqsədilə 400 milyon manat vəsait ayrılmışdı. Ordunun yaradılması prosesi 1920-ci ilin yanvarında əsasən başa çatdırıldı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi.

1919-cu ilin yayında Bakını tərk edən ingilislər şəhər limanının idarə-



çiliyini və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil verdilər. İngilislərdən alman gəmilər hesabına Xəzər donanması yaradıldı.

1919-cu il iyulun 21-də parlament "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında" Əsasnaməni təsdiq etdi. Həmin il avqustun 11-də parlament tərəfindən qəbul olunmuş "Azərbaycan vətəndaşlığı haqqında" qanuna görə özü və ya valideynləri Azərbaycan ərazisində anadan olmuş keçmiş Rusiya imperiyasının bütün təbəələri milli və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan vətəndaşı hesab olunurdu.

Xalq maarifi sahəsində ciddi nailiyyətlər qazanıldı. Orta məktəblərin təxminən yarısı milliləşdirildi, məktəblərdə rus tarixi əvəzinə ümumtürk tarixi tədris olunmağa başladı, bütün məktəblərdə Azərbaycan dilinin tədrisi məcburi hesab olundu. 1919-cu il sentyabrın 1-də Bakı Universitetinin təsis olunması haqqında qərar qəbul olundu. Dərslər noyabrın 15-də başlandı. Kənd Təsərrüfatı İnstitutunun yaradılması haqqında qanun qəbul olundu. 1919-cu ilin oktyabrında mətbuat sahəsində senzura ləğv olundu. Azərbaycanın müxtəlif regionlarında kişi və qadın seminariyaları açıldı, dövlətin hesabına yüzə yaxın gənc azərbaycanlı ali təhsil almaq məqsədilə Avropanın universitetlərinə göndərildi. Ticarəti və daxili bazarı dirçəltmək məqsədilə 1918-ci il avqustun 27-də azad ticarət haqqında fərman verildi, oktyabrın 30-da ticarət donanmasının fəaliyyəti bərpa olundu. 1919-cu ilin yayında Azərbaycan Xəzər donanması yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz ərazisi 97,3 min kvadrat kilometr idi.

Milli hökumətin xarici siyasətində bir-birilə bağlı mühüm məsələ dururdu:

1) Azərbaycanın suverenliyinin Avropa ölkələri tərəfindən tanınmasına nail olmaq;

2) Qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq;

3) Ermənistanın ərazi iddiaları məsələsini həll etmək;

Hərbi köməyə böyük ehtiyacı olan Azərbaycan hökuməti Türkiyə ilə ittifaq bağlamağı qərara aldı.

1918-ci il iyunun 4-də Türkiyə ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi imzalanmışdı. Osmanlı hökuməti lazım olan zaman Azərbaycan hökumətinə silahlı qüvvələrlə kömək etməyi öhdəsinə götürmüşdü. Bu asanlıqla başa gəlməmişdir. Ənvər paşa İstanbulda M.Ə.Rəsulzadə ilə olan söhbətində bildirmişdir ki, Azərbaycanda Türkiyə ordusu hər ay bir milyon manat xərc tələb edir. O, məsləhət görmüşdü ki, bu respublika öz ordusunu yaratsın. Yeni yaranmış Azərbaycan hökuməti xahişə cavab olaraq 2 milyon türk lirəsi həcmində borc da vermişdi.

Ermənistanla münasibətlər bu dövrdə çox ciddi çətinliklər yaradırdı. Belə ki, Azərbaycan öz qonşuluq münasibətlərini xoş məramla qurmağa cəhd etsə də, bu Ermənistanla mümkün olmadı. Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli iclasında Ermənistan hökumətinin İrəvanı özünə siyasi mərkəz seçməsi məsələsini nəzərdən keçirdi və bunu mümkün saydı. Lakin bəzi üzvləri bunu İrəvan quberniyası müsəlman əhalisinin taleyi üçün təhlükəli olacağını irəli sürdülər. B.Rzayev Milli Şurada təmsil olunan irəvanlılar adından demişdi: "Müstəqil Azərbaycan uğrunda çalışmaqla yanaşı, rica edirik, bizi, Erməni Respublikası ərazisində qalanları da unutmayasınız". Belə də oldu. 1917-ci ilin dekabrından 1918-ci ilin iyun ayınadək təkcə İrəvan quberniyasında 200-dən çox müsəlman kəndi yerlə-yeksan oldu. Azərbaycan və Ermənistan respublikaları yaranana qədər Dağlıq Qarabağ Gəncə quberniyasının tərkibində idi.

1918-ci ilin iyulunda Şuşada (əhalisi 46 faiz azərbaycanlı) Dağlıq Qarabağ ermənilərinin birinci qurultayı Dağlıq Qarabağı müstəqil elan etdi. Ermənistan hökuməti oraya silahlı qüvvə yeritdi.

Daşnaklar 1918-ci ilin axırlarında Azərbaycanın Zəngəzurda 40 kəndini, 1919-cu ilin yanvarında isə Şuşa qəzasında 9 kəndini dağıtdılar.

AXC qəddini düzəldən kimi 1919-cu ilin yanvar ayının əvvəlində Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb mərkəzi Şuşa olmaqla, Qarabağ general qubernatorluğunu yaratdı. Fevralın 12-də Xosrov bəy Sultanov ikinci qubernator oldu. Lakin Şuşa erməni Milli Şurası və Ermənistan hökuməti buna etiraz etdilər.

İngilis hərbi missiyasının iştirakı və köməyi ilə erməni Milli Şurasının sədri və başqaları Azərbaycanın hüdudlarından kənara qovuldu. Şuşanın erməni hissəsində Sultanovla görüşdə bir neçə yüz erməni Azərbaycan Respublikasının hakimiyyətini qəbul etdi. Diplomatik və siyasi vasitələrdən heç nə qazanmayan erməni tərəfi hərbi vasitələrə əl atdı. Andranik silahlı dəstələrlə Qarabağa yollandı və onun da qarşısı alındı.

1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan ilə ermənilər arasında saziş imzalandı. Bu kağız üzərində qaldı. Naxçıvan ərazisi əhalisinin 67 faizi azərbaycanlılardan ibarət olan Naxçıvan-İrəvan quberniyasına daxil idi.

Naxçıvanı Ermənistan öz ərazisi sayırdı. Naxçıvanın isə Azərbaycana o zaman birləşməsi qeyri-mümkün olduğu üçün və Ermənistana tabe olmamaq üçün 1918-ci ilin noyabrında Araz Respublikası adı altında özünün müstəqilliyini elan etdi. Ermənistan dəfələrlə Naxçıvana basqın etsə də, oranı özünə təslim edə bilmədi.

Ermənilərin təzyiqi nəticəsində təkcə 1919-cu ilin yanvarında 100 min qaçqın yarandı. Cavanşir, Cəbrayıl, Şuşadan 40 min, Şamaxıdan 25,8 min, Nuxadan 5,1 min qaçqın gəlmişdi.

1920-ci ilin yanvarında Ermənistanın hərbi fəaliyyəti daha da gücləndi. Azərbaycan Dağlıq Qarabağa qoşun hissələri yerləşdirdi. 1920-ci ilin martında Novruz bayramı gecəsi erməni silahlı dəstələri, eyni zamanda, Şuşada, Xankənddə, Əsgərənda və Tərtərdə yerləşən qoşun hissələrinə hücum etdi. Dağlıq Qarabağda Azərbaycan əleyhinə qiyam başladı. Mart ayının sonunda erməni daşnaq terroru nəticəsində xeyli Azərbaycanlı qırıldı.

Arazın Şimalında Azərbaycan adlı müstəqil dövlətin yaranması və onun gec-tez Cənuba təsir edəcəyi İranı narahat etməyə bilməzdi.

1918-ci ilin iyulunda Azərbaycanın İstanbulda olan nümayəndə heyəti İran konsulluğuna AXC-nin yaranması haqqında bəyənnamə təqdim etmiş, İran konsulu bəyənnaməni geri qaytararaq ona əlavə olunmuş vərəqdə göstərmişdir ki, o, Azərbaycan adlı müstəqil dövlət tanımır.

İran mətbuatında Azərbaycan Respublikasının adının düzgün müəyyən edilib- edilməməsi ətrafında geniş müzakirələr başlanmış, bəziləri həmin səhvin səbəbkarını Türkiyəni hesab edirdilər.

Tehran ingilis və ermənilərin təhriki ilə Naxçıvan və onun ətrafından 60 mindən çox yerli əhalini İrana köçürməyi və beləliklə, Naxçıvanı zəiflədib ermənilərin planlarını reallaşdırmaq meyilində idi. Azərbaycan diplomatik nümayəndəliyi Naxçıvandan didərgin düşənlərə yardımla yanaşı, Naxçıvan üzərinə İran ermənilərinin hücum etdiklərini Tehran hökumətinin nəzərinə çatdırdı.

1919-cu ilin əvvəllərində Paris konfransına böyük iddialı rəsmi memorandum vermişdi. İran bu memorandumda Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və İrəvanı tələb edirdi. Bu, çox qeyri-ciddi qarşılanmışdı.

1919-cu il noyabrın 1-də Azərbaycanın nümayəndə heyəti ilə İran nümayəndəlikləri arasında 4 bənddən ibarət sənəd imzalandı və bu sənəddə söhbət Qafqaz Azərbaycanından getdi. AXC-nin əsas dünya dövlətləri tərəfindən tanınmasından sonra İran 1920-ci il martın 20-də Azərbaycanı rəsmi olaraq tanıdı.

Müstəqil Azərbaycan üçün ən böyük təhlükə Sovet Rusiyası idi. 1919-cu il avqustun sonlarında RSFSR xalq xarici işlər komissarı Çiçerin Azərbaycan, Dağıstan və Gürcüstan fəhlə və kəndlilərinə Denikin təhlükəsi ilə bağlı müraciət etmişdi. 1920-ci ilin yanvarında Çiçerin Azərbaycan hökumətinə göndərdiyi notada Denikin əleyhinə ittifaq bağlamağı təklif etdi. Xoyski cavab notasında göstərdi ki, Azərbaycan başqa xalqların daxili işinə qarışmır.

1920-ci ilin yanvarında da göndərilən ikinci notada Azərbaycan hökuməti günahlandırılırdı. 1920-ci il fevralın 20-də Rusiya hökuməti adından üçüncü nota göndərildi.

Daxili işlər naziri Hacınski başda olmaqla, bir qrup belə hesab edirdi ki, Sovet Rusiyasına geniş güzəştlər yolu ilə Azərbaycanın İstiqlaliyyətini tanıtmaq olar. Lakin F.Xoyski və həmfikirləri isə məsələnin həllini ölkədə ciddi və güclü rejim yaratmaqda və təcavüzə qarşı əldə silahla vuruşmaqda görürdü. Bu məqsədlə Xoyski öz tərəfdaşlarını evinə yığıb konkret proqramını təqdim etdi.

1. Hacınskini vəzifədən götürüb onun yerinə kommunizmlə mübarizəyə hazır olan adam təyin etmək;

2. Sosialistlər hökuməti çıxdıqda onları başqaları ilə əvəz etmək;

3. Parlamentin buraxılması, hökumətə müdafiə məqsədilə fövqəladə hüquqlar vermək;

4. Azərbaycan Müəssislər Məclisinə yaxın 6 ayda seçkilər keçirmək.

1920-ci il mart ayının 6-da Azərbaycan və Gürcüstan nümayəndə heyəti Böyük Britaniya Baş Naziri Lloid Corca nota təqdim etdilər. Notada Rusiya tərəfindən istiqlalın tanınması üçün təşəbbüsü öz üzərinə götürməyi xahiş etdilər.

1920-ci il martın 7-də Xarici İşlər naziri F.Xoyski RSFSR Xarici İşlər Komissiyası adından növbəti nota göndərib sovet hökuməti ilə qarşılıqlı qonşuluq münasibətlərinin yaradılmasına hazır olduqlarını bildirdi. Nota cavabsız qaldı.

1920-ci il 17 martda Lenin Qafqaz Cəbhəsi hərbi inqilab şurasının üzvləri Smiqla və Orcenikidzeyə belə bir teleqram göndərdi: "Bakını tutmaq bizə son dərəcə və son dərəcə zəruridir. Bütün səyinizi buna verin".

Aprelin 15-də Xoyski sonuncu nota ilə Çiçerinə müraciət etdi. Burada Dərbənd rayonunda Qızıl Ordunun xeyli əsgərlərinin toplanılmasından narahatlıq ifadə olunurdu. Bu da cavabsız qaldı. 1920-ci il aprelin 26-dan-27-nə keçən gecə 11-ci Qızıl Ordunun ön hissələri Azərbaycan Respublikasının sərhədlərini keçib sürətlə cənuba doğru irəlilədi. Aprelin 27-də Azərbaycan KPMK Qafqaz Diyar komitəsinin Bakı bürosu və fəhlə konfransı adından Azərbaycan parlamentinə hakimiyyətin təhvil verilməsi haqqında ultimatum verildi.

Azərbaycan parlamentinin fəaliyyəti həmin gün saat 2045-də başa çatdı.

1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu. Aprel işğalı nəticəsində Azərbaycanda qurulan bolşevik rejiminin ömrü 70 ildən də çox çəkdi. Bu rejim özünün bütün varlığı ərzində Şərqdə ilk demokratik respublikanın bayrağını ucaldan qeyrətli soydaşlarımızla, onların haqq işinin davamçıları ilə mübarizə apardı. Lakin xalqın qəlbində yaşayan azadlıq atəşini söndürməyə müvəffəq olmadı. Xalq özünün istiqlal arzularını nəsildən-nəslə ötürdü. Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi, indiki Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu ümumxalq iradəsi ilə təsdiqlədi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Respublika Günü münasibətilə söylədiyi nitqində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını belə dəyərləndirir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünya miqyaslı tarixi hadisə idi. Çünki müsəlman ailəsində ilk demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu tarixi Azərbaycan xalqı yazıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bir daha onu göstərir ki, Azərbaycan xalqı çox istedadlı, vətənpərvər və mütərəqqi xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsi bizim üçün əzizdir. Azərbaycan dövləti və Azərbaycan xalqı onların xatirəsini ehtiramla yaşadır".

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin Sədr müavini - parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, professor***

## Şərqin ilk demokratik respublikası

**Ümummilli Lider Heydər Əliyevin banisi olduğu, Prezident İlham Əliyevin tarixin ən qüdrətli dövrünü yaşatdığı müstəqil Azərbaycanın nailiyyətləri cümhuriyyətçilik prinsiplərinin təntənəsidir.**

Azərbaycan xalqının taleyində və dövlətçilik tarixində ən əlamətdar günlərdən biri də 28 May - Respublika Günüdür. Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 102 il ötür. Bu tarix hər bir azərbaycanlının milli qürur hissi duyduğu gündür. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulduğu gün kimi əbədiyaşarlıq qazanan 28 May xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuşdur. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində bu işıqlı may günündə arzusuna qovuşmuşdur. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə malik müstəqil bir respublikanın qurulduğu dünyaya bəyan edilmişdir. Xalqımız 1918-ci il mayın 28-də çar Rusiyasının müstəmləkə əsarətindən azad olmuş, Şərqin ilk demokratik respublikasının təməlini qoymuşdur. Həmin gün Azərbaycan Milli Şurasının iclasında İstiqlal Bəyannaməsi qəbul edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə idi.

Mayın 27-də isə Seymin müsəlman fraksiyasının, yeni Zaqafqaziya Müsəlman Şurasının (faktiki olaraq Zaqafqaziya müsəlman parlamentinin) üzvləri ayrıca iclaslarını keçirərək Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəlmişlər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan parlamenti elan etmişdi. Bununla ilk Azərbaycan parlamenti yaranmış, parlamentli respublikanın təməli qoyulmuşdur. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçilmişdir.

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası olmuşdu. İclasda iştirak edən Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyov, Mir Hidayət Seyidov, Nəriman Nərimanov, Heybətqulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Səlim Axundzadə Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etmişlər. Odur ki, bu görkəmli dövlət və ictimai xadimlərin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin, habelə onlarla bu yolda mübarizə aparan insanların adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

İstiqlal Bəyannaməsi Şərqdə ilk dəfə Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılmasından xəbər verirdi. Bununla əlaqədar mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə radioteleqrafla məlumat çatdırıldı. Milli Şura Azərbaycan hökumətinin təşkilini F.Xoyskiyə həvalə etdi. Bu dövrdə yaranmış ictimai-siyasi gərginliyə görə Azərbaycan Milli Şurasının və hökumətin Gəncəyə köçməsi ilə əlaqədar müxtəlif fraksiyalar və partiyalar arasında ciddi mübarizə gedirdi.

1918-ci il dekabrın 28-də Azərbaycan hökuməti tərəfindən parlamentin ağsaqqallar şurası nümayəndələrinin iştirakı ilə Paris Sülh Konfransında iştirak etmək üçün Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, cümhuriyyətin beynəlxalq aləmdə tanınmasında əvəzsiz xidmətləri olmuş Ə.M.Topçubaşovun sədrliyi ilə Fransaya nümayəndə heyəti göndərildi. Böyük əziyyətlərdən və erməni təbliğatı ilə uzunmüddətli mübarizədən sonra, nəhayət, həmin nümayəndə heyəti 1920-ci il yanvarın 12-də Sülh konfransındakı əsas ölkələr tərəfindən Azərbaycanın de-fakto tanınmasına nail oldu.

Azərbaycan Cümhuriyyəti Parlamenti Paris Sülh Konfransında missiyasını uğurla yerinə yetirdi. Azərbaycan nümayəndə heyətinin səyi ilə konfrans Qərbi Avropa ölkələrində (İngiltərə, Fransa, İtaliya, İsveçrə, Polşa) və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun qəbul etdi. Müzakirələr zamanı sosialistlər blokundan olan deputatlar Almaniya və Azərbaycan hökumətinin ciddi səylərinə baxmayaraq, onu de-fakto belə tanımayan sovet Rusiyasında da nümayəndəliklərin açılmasını təkid edərək buna nail oldular.

Təəssüf ki, 1918-ci il mayın 28-də müstəqilliyini elan etmiş Azərbaycan xalqı müəyyən obyektiv və subyektiv səbəblərdən bu müstəqilliyi qoruyub saxlaya bilmədi: milli hökumət 1920-ci il aprelin 28-də xəyanətkar bolşevik-erməni silahlı birləşmələrinin əli ilə devrildi, ölkə XI qırmızı ordu tərəfindən işğala məruz qaldı. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq şərəfli ömrünə son qoyuldu. Türk dünyasının ilk müstəqil dövləti süquta uğradı.

Bundan sonra respublikamız uzun illər sovet imperiyasının tərkibində, onun qayda və qanunları, habelə ideoloji buxovları altında fəaliyyət göstərməyə məcbur oldu. Bəlkə dahilərin, bəlkə də siyasətçilərin sözüdür: tarix təkrar olunur. Şükür ki, Azərbaycan xalqı ötən əsrin 80-ci illərində bu təkrarın canlı iştirakçısı və şahidi oldu: 1918-ci ilin mayından 70 il keçəndən sonra Azərbaycan xalqı yenidən ayağa qalxdı, öz haqqını-azadlığını və müstəqilliyini tələb etdi. Bu yolda məhrumiyyətlərə düçar edildi, şəhidlər verdi, lakin yolundan




dönmədi. Nəhayət ki, 1991-ci ilin oktyabrında Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdi. Müstəqilliyi və qanı bahasına alınmış azadlığı qorumaq yolunda xalqımız nə qədər təzyiqlərə məruz qaldı, torpaqlarımız qəsb olundu, taleyimizə didərginliyin, əlilliyin, şəhidliyin qara naxışları vuruldu. Lakin azadlıq aşiqlərinin fədakarlığı və mübarizəsi sayəsində əsrin sonunda Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq mümkün oldu.

1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda xalqın çağırışı ilə böyük dövlətçilik təcrübəsinə malik Heydər Əliyev ikinci dəfə hakimiyyətə gətirildi və Azərbaycan müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu. Ulu Öndərin gərgin əməyi sayəsində idarəetmə və iqtisadi inkişaf dövrü başlandı.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarix, bu illər ərzində xalqın həyatının bütün sahələrində baş verən dirçəliş müasir müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanı müstəqil dövlət quruculuğunun bərpasına aparan yol öz başlanğıcını əslində 1969-cu ildən, dahi rəhbərin hakimiyyətə gəldiyi vaxtdan götürmüşdü.

Azərbaycan dövlətçiliyini, milli maraqlarımızı hər şeydən üstün tutan böyük dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyev hər zaman Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin müstəqillik tarixində mühüm yerə malik olduğunu bildirirdi. Ulu Öndər müasir Azərbaycan dövlətinin məhz 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını dəfələrlə bəyan edib. Təsadüfi deyil ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasında qaldırılması Ümummilli Liderin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətini məhz 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməsi ölkəmizin beynəlxalq ictimaiyyətə tanıdılması baxımından da müstəsna əhəmiyyətə malikdir. Çünki bununla dünya ictimaiyyəti görür və dərk edir ki, Azərbaycanın zəngin dövlətçilik tarixi və ənənələri var, müasir müstəqil Azərbaycan zəngin dövlətçilik ənənələri əsasında formalaşıb.

Dünya şöhrətli siyasətçinin yenidən ölkə rəhbərliyinə qayıdışı ilə respublikanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun dövlət quruculuğu prosesi başlanmışdı. Uzaqgörən liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin mayında həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Ölkə daxilində yaranmış nisbi sakitlikdən və beynəlxalq aləmdə Azərbaycana qarşı artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlanan ilk neft müqaviləsinin imzalanması və gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü olmuşdur. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Ümummilli Lider yaratmışdır. Bütün həyatını öz xalqının inkişafına həsr edən Ulu Öndərin qurucusu olduğu müstəqil Azərbaycan getdikcə daha da inkişaf etməkdədir.

Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin sərəncamına əsasən hər il 28 May - Respublika Günü nəinki Azərbaycanda, hətta xarici ölkələrdə belə böyük təntənə ilə qeyd olunur. Dövlət başçısı İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, habelə Azərbaycan hökuməti və xalqı Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının xatirəsinə daima böyük hörmətlə yanaşır. Prezidentin sərəncamı ilə Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə əzəmətli abidə ucaldılıb. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi paytaxt Bakıdan tutmuş bütün bölgələrdə, ən ucqar kəndlərdə, eləcə də xarici ölkələrdə diaspor təşkilatları və səfirliklərimiz tərəfindən rəğbətlə qeyd edilib. Könülləri riqqətə gətirən bu may günündə qürur tariximiz olan 28 May - Respublika Günü ölkənin nazirlik və şirkətlərində, komitə və təşkilatlarında, ali və orta təhsil müəssisələrində böyük rəğbət və ehtiramla qeyd edilir.

Respublika Günün mübarək, Azərbaycan!

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Bu barədə AZƏRTAC-a QMİ-nin Mətbuat xidmətindən məlumat verilib.

Təbrikdə deyilir: "Allahın dərgahında rəhmət, bərəkət və məğfirəti ilə üstün aylardan olan Ramazanın əzəmət və sevinci hədsizdir. Uca Allaha şükürlər olsun ki, Onun rizasını qazanmaq üçün müsəlman qardaş və bacılarımız bu mübarək ay boyunca bütün ibadətlərini sonsuz ehtiram və səylə tamamlayaraq, Ramazani-şərifin bayram səadətinə qovuşurlar. Allahdan dua edirik ki, bu bayram insanlar üçün səadət və xeyir-bərəkətlərə vəsilə olsun.

Builki Ramazan dünya üçün mürəkkəb dövrə təsadüf etdi. Bəşəriyyət xəstəlik təhlükəsi ilə mücadilə apardığı bir zamanda dünya müsəlmanları kimi, İslam aləminin ayrılmaz parçası olan Azərbaycan dindarları da dünyada yayılan xəstəlik kabusunun və onun gətirdiyi çətinliklərin tezliklə aradan qalxması, Yer üzündə salamatlıq, əmin-amanlığın hökm sürməsi üçün dualar etdilər, Ramazan ayının oruc, ibadətlərini ixlas və təqva ilə yerinə yetirdilər, evlərində, ailə ocaqlarının başında böyük ümid və imanla Ramazan sevincini yaşadılar. Azərbaycan cəmiyyəti dövlət başçısının "Biz birlikdə güclüyük!" şüarı ilə səfərbər oldu. Necə ki, Uca Allah müqəddəs kitabımız Qurani-Kərimdə buyurur ki, hamılıqla Allahın nuruna möhkəm sarılın və ayrılmayın. Ən müqəddəs dəyər olan insan həyatının qorunması yönündə fövqəladə tədbirlər, vaxtında verilmiş qərarlar Allahın köməyi ilə xalqımızı ağır itkilərdən qorudu. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkə vətəndaşlarına ümid və əminlik bəxş edən sosial layihələri, yardımları, səmimi ünsiyyət və müraciətləri onların siyasi iradəsini və xalq-dövlət birliyinin gücünü bariz şəkildə nümayiş etdirir. Azərbaycan Prezidentinin ölkə daxilində və beynəlxalq müstəvidə humanizm örnəyi Ramazanın mərhəmət abhavası ilə həmahəng oldu. Cəmiyyətimizin mənəvi saflaşmasına xidmət edən dövlət əhəmiyyətli addımlar Uca Allaha xoş gedən, xalq tərəfindən təqdir olunan hallardır.

Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və inkişafında əvəzsiz xidmətləri olmuş Ulu Öndər Heydər Əliyev qədirbilən xalqımız tərəfindən bu əziz bayram günlərində rəhmət və ehtiramla yad olunur. Azərbaycan xalqı əmindir ki, Allahın köməyi ilə, firavan sabahının, dinc, sabit həyatının və tərəqqisinin zəmanəti müstəqil Azərbaycanın siyasi, iqtisadi, mədəni-mənəvi qüdrətinin təmini üçün yorulmaz səylər göstərən Prezident İlham Əliyevin qətiyyət və möhkəm iradə ilə yeritdiyi davamlı islahatlar, xalqın maddi və mənəvi rifahının daha da yaxşılaşdırılmasına yönəlik müdrik dövlət siyasətidir.

Allah-təalanın lütfü və mərhəməti sayəsində Ramazan bayramını qarşılayan xalqımızın, Vətənimizin və dünyanın salamatlığı, əmin-amanlığı üçün dualar edirik. Uca Yaradanın rizası yolunda xeyirxahlığı təcəssüm etdirən bu bayram günlərində dünyada yayılan xəstəlik kabusunun və onun gətirdiyi iqtisadi çətinliklərin tezliklə aradan qalxmasını, xəstələrin şəfa tapmasını, dünyasını dəyişənlərin rəhmətə qovuşmasını diləyirik. İnşallah, işğal altında olan torpaqlarımızı azad etməyi, Azərbaycanın dünya birliyində mövqe və nüfuzunun daha da möhkəmlənməsini Allah bizlərə nəsib etsin. Allah müstəqilliyimiz, dövlətçiliyimiz uğrunda cəmi şəhidlərimizə rəhmət eləsin, qəbirləri nurla dolsun. Savab, ülfət ayı olan Ramazan bəşər övladına səbir, mərhəmət, xeyirxahlıq, yardımlaşmanı təlqin edir. Bu ülvi bayram günündə qohum-əqrəbalara, valideynlərə baş çəkilməsi, küsülülərin barışması, yetim, kimsəsiz və ehtiyacı olanlara şəfqət göstərilməsi müstəhəb əməllərdəndir.

Bir daha əziz bayram - Eydül-Fitr səadətinə yetişən bütün müsəlmanlarımızı səmimi-qəlbdən təbrik edir, xeyir-dualarımı yetirirəm. Allah-təala bütün dua və ibadətlərimizi qəbul etsin, hər zaman yardımçımız olsun. Allah orucumuzun əcri olaraq Öz lütfü sayəsində bizlərə xeyir və bərəkətini artırsın, xalqımıza salamatlıq, hər bir ailəyə rifah bəxş etsin. Uca Rəbbimiz müstəqilliyimizi əbədi, dövlətimizi və dövlət başçısını müzəffər qərar versin. Allah Azərbaycan xalqını qorusun. Amin".






# İlham Əliyevdən növbəti sərt xəbərdarlıq

## Prezident bəyan etdi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı aparılan amansız mübarizə daha da gücləndiriləcək

**"Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaq...**

Korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalı və bunun kökü kəsilməlidir. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır".

Bu sərt xəbərdarlığı Prezident İlham Əliyev mayın 21-də Ağstafa və İmişli rayonlarına təyin etdiyi yeni icra hakimiyyəti başçılarını qəbulu zamanı səsləndirib. Videoformatda baş tutan qəbulda dövlət başçısı hər zaman olduğu kimi, gənc kadrlara məsləhət və tövsiyələrini, ciddi tapşırıqlarını verməklə yanaşı, xəbərdarlığını da edib. Əgər yeni təyin olunan icra başçıları Prezidentin verdiyi tapşırıqları icra edə bilməsələr, cəzalanacaqlar. Ona görə də icra başçıları onlara göstərilən etimadı öz işləri ilə doğrultmalıdırlar.

### Vətəndaşı narahat edən problemlər həll edilməlidir

Prezident yeni təyin olunmuş məmurlara rəhbərlik edəcəkləri rayonlarda bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmalı olduqlarını, korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökünün kəsilməsi üçün ciddi çalışmalarının vacibliyini vurğuladı: "Birinci növbədə siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz. Sizin həll etməyə gücünüz çatmayan məsələlər barədə müvafiq mərkəzi icra orqanlarına məlumat verin ki, bu məsələlər operativ şəkildə öz həllini tapsın".

Dövlət başçısı həmçinin pandemiya dövründə ölkənin sosial-iqtisadi durumu, həyata keçirilən regional proqramlardan danışaraq vurğuladı ki, indiki şəraitdə ölkəmizin uğurlu inkişafı, ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək.

Qlobal böhrandan az itki ilə çıxmaq üçün dövlət bütün lazımi tədbirləri görür. Azərbaycanda pandemiya ilə əlaqədar tətbiq olunan mexanizm ən yüksək qiymətə layiqdir. Dövlət yüz minlərlə insanın sosial vəziyyətinin pisləşməsini nəzərə alaraq onlara yardım göstərir. Bu yardım insanları belə bir ağır vəziyyətdə ruhlandırır və eyni zamanda onların maddi imkanlarının təmin edilməsində rol oynayır: "Biz bunu edirik ki, insanlar bu vəziyyətdən çıxsın və az itkilərlə çıxsınlar. İlk növbədə, koronavirusla bağlı mübarizədə görülmüş işlər yüksək qiymətə layiqdir. Eyni zamanda koronavirusa görə işini itirən, yaxud da ki, müvəqqəti olaraq itirən insanların da yardımına dövlət gəlməlidir. Ona görə də dövlət hər zaman bu işlərdə aparıcı rolunu oynayacaq".

### Sahibkarlara təzyiqlər aradan qaldırılmalıdır

Prezident hazırkı durumda sahibkarlığın inkişafının daha böyük əhəmiyyət daşıdığını diqqətə çatdıraraq vurğuladı ki, bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb. Ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. İş adamları hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə qarşılaşırlar: "Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol vermək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə, rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verilir. Buna yol vermək olmaz".

Cənab İlham Əliyev ölkədə kənd təsərrüfatının inkişafının prioritet sahə olaraq qaldığı üçün indiki şəraitdə aqrar sektorun müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramların icra edildiyini diqqətə çatdırdı. Bu sahədə də yerli icra orqanlarından çox şey asılıdır. Ona görə də müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməli, insanlar işlə təmin edilməli, məhsuldarlıq artırılmalıdır. Ümumilikdə, kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir.

Son 17 il ərzində bölgələrdə reallaşan layihələri dəyərləndirən Prezident qeyd edib ki, görülən işlərin ən azı 90 faizi onun təşəbbüsü ilə baş tutub.

Həqiqətən də, bu qısa dövrə nəzər yetirsək, bölgələrin sürətli inkişafının şahidi olarıq. Belə ki, bu müddətdə ölkədə həyata keçirilən dövlət proqramları çərçivəsində 16 min kilometr avtomobil yolu çəkilib, bütün elektrik təsərrüfatı, demək olar ki, yenidən qurulub, qazlaşdırma təxminən 100 faizə çatdırılıb, 3500-dən çox məktəb, 700-dən çox tibb ocağı, 50-yə yaxın olimpiya idman mərkəzi tikilib. Bununla yanaşı, regionlarda gənclər evləri, mədəniyyət sarayları, digər sosial obyektlər inşa edilib.

Bütün bu işlərə dövlət başçısı şəxsən nəzarət edib. Mütəmadi olaraq bölgələrə səfər edərək yeni-yeni obyektlərin açılışlarını edib, təməlini qoyub və ciddi göstərişlərini verib. Həmçinin ictimaiyyət nümayəndələri ilə görüşərək vətəndaşların problemləri ilə maraqlanıb və onların bəzilərinin yerində həll olunması ilə bağlı göstərişlər verib. Bütün bunlar da, əlbəttə ki, xalqın dövlətə olan etimadını, inamını daha da yüksəldib: "Bizim bölgələrdə gördüyümüz işlərin mənbəyi xalqın iradəsidir. Bildiyiniz kimi, artıq regionların dördüncü sosial-iqtisadi inkişafı Dövlət proqramı icra olunur. Bütün proqramların tərtibatında yerlərdən gələn təkliflər üstünlük təşkil edir. Mənim bölgələrə, rayonlara çoxsaylı səfərlərim və səfərlər əsnasında vətəndaşlarla görüşlərim bu proqramların hazırlanmasında xüsusi rol oynayır".

### Prezident yeni kadrlara tövsiyə və tapşırıqlarını verdi

Çıxışının sonunda Prezident bir daha Azərbaycanın yeniləşdiyini, müasirləşdiyini və yeni kadrlardan çox şey asılı olduğunu söyləyərək, yeni təyin olunan icra başçılarına tövsiyə və tapşırıqlarını verdi: "Sizin fəaliyyətinizdən çox şey asılıdır və insanların inamı, əhvali-ruhiyyəsi, ədalətə inanması bir çox hallarda yerli rəhbərlərin işindən asılıdır. Siz elə işləməlisiniz ki, insanlar sizə inansınlar, sizi dəstəkləsinlər və sizin işinizdən razı olsunlar. Bunu da bilməlisiniz ki, sizin fəaliyyətinizə diqqət göstəriləcək, nəzarət olunacaq. Elə işləməlisiniz ki, mənim tərəfimdən verilən bütün tapşırıqlar yerinə yetirilsin, Ağstafa və İmişli rayonlarının uğurlu inkişafı təmin edilsin".

Bir sözlə, Prezident növbəti dəfə yeni təyin etdiyi İcra Hakimiyyəti başçılarını qəbul edərək onlara doğru istiqamət verdi və yeni kadrların fonunda digər məmurlara da sərt xəbərdarlığını etdi.

Ümumiyyətlə, hər kəs son aylar ölkədə korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndiyinə şahidlik edir. Bəzi rayonların icra hakimiyyəti başçılarının və ayrı-ayrı nazirliklərin struktur rəhbərlərinin işdən azad edilərək həbs olunmaları bir daha təsdiq edir ki, cənab İlham Əliyevin tapşırığına əsasən, korrupsiyaya qarşı amansız mübarizə başlayıb. Prezident isə bu istiqamətdə tədbirlərin daha da sürətləndiriləcəyini bəyan etdi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Dövlət bu dəfə də vətəndaşını tək buraxmadı

Azərbaycanda aparılan sosial islahatların əsas məqsədi ölkənin hər bir vətəndaşına qayğı göstərməkdir. Odur ki, sosial müdafiə sahəsində daim qanunlar təkmilləşdirilir və bundan sosial qayğıya ehtiyacı olan insanlar getdikcə daha çox faydalanırlar.

Həmin istiqamətdə yeni uğurlar əldə etmək üçün pensiya və sosial müavinətlər artırılır, əlillərin reabilitasiyası üçün təsirli tədbirlər görülür, məcburi köçkünlər, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni yaşayış evləri tikilir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bəyan edib ki, dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır. Prezident tərəfindən keçən il iki mühüm sosial paketin qəbulu əhalinin sosial müdafiəsində xüsusi əhəmiyyət daşıdı. Həmin sənədlərin icrası ümumilikdə sosial müdafiəyə ehtiyacı olan insanların bütün təbəqələrini əhatə edir. Bu sənədlərin əhatə dairəsinə 4,2 milyon nəfər və ya ölkə əhalisinin 42 faizi daxildir. Bu iki sosial paketin qəbulu sahəsində həmin kateqoriyadan olan insanların əməkhaqqı, pensiya, sosial müavinət və təqaüdlərinin, həmçinin digər sosial ödənişlərin məbləği əhəmiyyətli dərəcədə artdı. Bəzi sahələrdə bu artım iki dəfədən çox oldu.

Azərbaycan dövlətinin sosial sahədə apardığı siyasət davamlı xarakter daşıyır. Belə ki, cari ilin ilk dörd ayı ərzində əmək pensiyalarının orta aylıq məbləği 2020-ci ilin 1 yanvar tarixinə nisbətən 12 faiz və ya 31,74 manat artıb. Bununla yanaşı, ötən ilin müvafiq dövrü ilə müqayisədə bütün növ pensiyaların orta aylıq məbləği 27,8 faiz çoxalıb.

Dövlət əhalinin məşğulluğunun artmasına da böyük önəm verir. Ona görə ki, sosial müdafiənin ən yaxşı yolu əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin olunmasıdır. Prezidentin birbaşa göstərişi ilə ödənişli ictimai iş yerlərinin sayı 38 mindən 90 minə çatdırılır. Artıq DOST İş mərkəzləri vasitəsilə əlavə 23 min şəxs bu işlərə cəlb edilib. Hazırda 61 min nəfər əmək müqaviləsi ilə ödənişli ictimai iş yerlərində çalışır.

Məşğulluğun ən doğru yolu hər bir şəxsin və ya ailənin fərdi məşğulluq imkanının olmasıdır. Hazırda ölkə üzrə özünüməşğulluq proqramı çərçivəsində cari ildə minimum 12 min ailə üçün kiçik təsərrüfatların qurulması istiqamətində işlər görülür.

Dövlət əhalinin məşğulluğunu daha yaxşı təmin etmək üçün beynəlxalq təşkilatlarla da əməkdaşlıq yaradıb. Dünya Bankı ilə bu sahədə birgə layihələrin icrası ildə 5 min ailənin özünüməşğulluğunu təmin edəcək. Bununla yanaşı, Heydər Əliyev Fondu BMT-nin İnkişaf Proqramı ilə birgə işsiz, eləcə də əlilliyi olan şəxslərin kiçik biznesə çıxışına imkan yaratmaqla məşğulluğun təmin edilməsinə dəstək verir.

Dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca məqsədi qayğıya ehtiyacı olan hər bir vətəndaşın əhatə olunmasıdır. Ünvanlı dövlət sosial yardım proqramı da bu məqsədə xidmət edir. Hazırda ölkə üzrə 82 mindən çox ailənin 342 min üzvü ünvanlı dövlət sosial yardımı ilə əhatə olunub. Bu ailələrin hər birinə ayda orta hesabla 224 manat verilir.

Məlumdur ki, koronavirus pandemiyası özünü təkcə xəstəlik kimi göstərmədi, dünyanı ağuşuna alan bu bəla iqtisadiyyata, eləcə də əhalinin sosial vəziyyətinə mənfi təsir göstərməyə başladı. Bir çox iş yerləri məcburən bağlandı və beləliklə, insanlar qazanc əldə edib ailələrini dolandırmaq imkanlarını itirdi.

Həmişə olduğu kimi, bu dəfə də dövlətimiz öz vətəndaşını tək buraxmadı. Pandemiya dövründə əhalinin sosial müdafiəsini qorumaq üçün təcili tədbirlər görməyə başladı. Prezident İlham Əliyevin 19 mart 2020-ci ildə imzaladığı sərəncamla əhalinin sosial məşğulluğuna və rifahına dəstəyin təmin olunması üçün çoxistiqamətli proqramlar müəyyən edildi. Bu tədbirlər planı üzrə ayrılan vəsait ilk dəfə 2,5 milyard manat idi. Sonradan dövlət başçısı hər bir ölkə vətəndaşının bu dəstəkdən istifadə etməsi üçün həmin məbləği artıraraq 3,5 milyard manata çatdırdı. Beləliklə, koronavirus pandemiyası ilə əlaqədar işsiz və işini itirən, qeyri-formal işləyən 600 min aztəminatlı vətəndaş müəyyən edildi. Aprel-may aylarında onlara birdəfəlik ödəmə verilməsi üçün 228 milyon manat vəsait ayrılıb. Həmin vəsaitin 114 milyon manatı aprel ayında ölkə vətəndaşlarına ödənilib.

Koronavirus pandemiyası təkcə ölkəmiz üçün deyil, bütün dünya üçün əsl sınaq oldu. Bəzi dövlətlər bu çətin anda vətəndaşlarını taleyin ümidinə buraxdı. Halbuki onlar bizə insan haqlarından, insana sosial qayğıdan dərs keçmək istəyirdi. Ancaq Prezident İlham Əliyev bu bəlanın ölkəmizə keçdiyi ilk andan əhalinin sağlamlığının və rifah halının dövlət üçün hər şeydən üstün olduğunu bəyan etdi. Dövlət başçısı təkcə bəyanat verməklə kifayətlənmədi, gördüyü real işlərlə ölkə əhalisinin və beynəlxalq təşkilatların bir daha rəğbətini qazandı.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




## *İbrahim MƏMMƏDOV:* “Nazirlər Kabineti yanında Operativ Qərargah karantin rejiminin yenidən sərtləşdirilməsini zəruri hesab etmir”



**“Nazirlər Kabineti yanında Operativ Qərargah ölkədəki ümumi sanitar-epidemioloji vəziyyəti müzakirə edib. Ümumi rəyə görə, vəziyyət karantin rejimini yenidən sərtləşdirmək üçün əsas vermir”.**

AZƏRTAC xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

Onun sözlərinə görə, bəzi ölkələrdə yumşalmadan sonra sərtləşməyə dönüş var. Lakin Nazirlər Kabineti yanında Operativ Qərargah karantin rejiminin sərtləşdirilməsinə qayıtmağı zəruri saymır. Bununla yanaşı, karantin rejiminin daha da yumşaldılması və tamamilə ləğv edilməsi də hələlik mümkün hesab olunmur.

## Ölkəmizdə yoluxma hallarının daha çox rast gəlindiyi ərazilər açıqlanıb

**“Ölkəmizdə koronavirusa yoluxma hallarının 47,2 faizi Bakıda, 12,8 faizi Gəncə-Qazax bölgəsində, 10,8 faizi Aran rayonlarında, 9,8 faizi Lənkəranda, 8,1 faizi isə Abşeron yarımadasında qeydə alınıb”.**



AZƏRTAC xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

R.Bayramlı bildirib ki, Bakı, Gəncə, Sumqayıt şəhərlərində, Lənkəran, Salyan, Yevlax, Neftçala, Cəlilabad, Kürdəmir, Samux, Abşeron, Ağstafa, Göyçay rayonlarında yoluxma halları digər rayonlara nisbətən çoxdur. Yevlaxda 83 yoluxma faktı qeydə alınıb, bu da ümumi yoluxma hallarının 2,1, aktiv halların 6 faizə qədərini təşkil edir. Bu, onu göstərir ki, vətəndaşlar qətiyyən arxayınlaşmamalı, tibbi qurumlar isə fəaliyyətini gücləndirməlidirlər.

## *TƏBİB-in İdarə Heyətinin sədri:* “Həftənin ötən günləri ərzində koronavirusa yoluxan 384 nəfər sağalıb”

**“Mayın 19-da sağalanların sayı yoluxanların sayını üstələyib. Biz bu cür tendensiyanı arzu edirik. Epidemioloji vəziyyəti nəzarətdə saxlaya bilsək və xəstəxanalara daxil olan xəstələr sağaldıqca qarşıdakı günlərdə bu sayın daha yüksək olacağını gözləyirik. Buna uyğun bütün əks-epidemik tədbirlər icra olunmalıdır”.**

AZƏRTAC xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

R.Bayramlı bildirib ki, bu həftənin ötən günləri ərzində 384 nəfər sağalıb. Ötən həftə isə xəstəlikdən sağalanların sayı 365 nəfər olub. Həftə başa çatmasa da, sağalanların artım dinamikası var: “Ötən həftə 7 nəfər koronavirus səbəbindən vəfat edib. Bu həftənin ötən müddətində də 7 nəfər COVID-19 infeksiyası səbəbindən dünyasını dəyişib”.




## *TƏBİB-in İdarə Heyətinin sədri:* “Bu həftənin sonuna doğru ikinci dalğanın stabilləşməyə meyilli olduğunu görürük”

**“Sərt karantin rejimi tədbirlərinin yumşaldılmasından sonra bu həftənin sonuna doğru ikinci dalğanın stabilləşməyə meyilli olduğunu görürük. Lakin ötən həftə də dalğalanmalar olduğuna görə qəti fikir bildirmək çətindir”.**

AZƏRTAC xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

R.Bayramlı bildirib ki, mayın 18-dən karantin rejimində növbəti yumşalmalar tətbiq olunduğundan inkubasiya dövrünü nəzərə alaraq gələn həftə nəyin gözlənildiyi sual altındadır. Bu istiqamətdə tədqiqatlar davam etdirilir.

## Azərbaycanda xüsusi karantin rejiminin uzadılması müzakirə olunur

“Azərbaycanda xüsusi karantin rejiminin uzadılması müzakirə olunur. Lakin hansı tarixədək uzadılacağı epidemik göstəricilərdən asılı olacaq”. AZƏRTAC xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

R.Bayramlı bildirib ki, beynəlxalq uçuşların bərpası və sərhədlərin açılması da müzakirə obyektidir. Bunun üçün daxildəki yoluxma hallarının stabilləşməsi, qonşu ölkələrdəki epidemioloji vəziyyətin təhlili, qonşu və digər ölkələrdə aviaşirkətlərin həyata keçirəcəyi tədbirlər əsas götürüləcək. Ola bilsin ki, bu, iyunun 15-dən sonra mümkün olsun. Lakin yaxın günlərdə gözlənilmir. İlk olaraq Naxçıvan Muxtar Respublikasına uçuşların bərpasını düşünürük”.

## Bu həftənin ötən günləri ərzində ümumilikdə 581 nəfərdə koronavirus aşkarlanıb

**Ötən həftə 755 nəfərdə koronavirus aşkarlanıb. Bu həftənin 5 günü ərzində ümumilikdə 581 yoluxma halı qeydə alınıb.**

AZƏRTAC xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

“Yoluxma hallarının intensivliyi davam edir. Bu həftə günlər üzrə virusa yoluxanların sayı 100-dən yuxarı olub. Ən çox yoluxma faktı isə mayın 16-da qeydə alınıb - 158 nəfər”, - deyə R.Bayramlı qeyd edib.










# Mütərəqqi sosial siyasət nümunəsi

## İlham ƏLİYEV: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

Hazırda koronavirus pandemiyası bütün bəşəriyyət üçün təhlükə mənbəyi olaraq qalmaqda davam edir. Virus ölkəmizdən də yan ötmədi. Lakin həyata keçirilən səmərəli tədbirlər sayəsində Azərbaycan koronavirusla mübarizədə ən uğurlu nəticələr əldə edən dövlətlərdən biridir. Respublikamızda virusun yayılmasının qarşısının alınması yönündə görülən işlər haqlı olaraq beynəlxalq miqyasda təqdir olunur.

### Daim xalqının yanında olan lider

COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, hər kəsin sağlamlığının qorunması məqsədilə həyata keçirilir. Bütün bunların fonunda özünü göstərən əsas həqiqət həm də o oldu ki, Prezident İlham Əliyevin yürütdüyü siyasətin prioritetlərindən biri vətəndaşların sosial rifahıdır.

Öncə onu qeyd edək ki, xalq istənilən gözlənilməz situasiyalarda öz yanında hər zaman liderini görüb. Bir neçə il əvvəl aran rayonlarında sel daşqınlarının törətdiyi fəsadlar və şimal-qərb rayonlarında baş vermiş zəlzələ zamanı ölkə ictimaiyyəti İlham Əliyevin məsələyə çevik reaksiyasının şahidi oldu. İlham Əliyev hadisələr baş verən bölgələrə səfər etdi və dövlət başçısının əsas tapşırıq və göstərişləri, imzaladığı sərəncamlar ilk növbədə vətəndaşların sosial qayğılarının həlli ilə bağlı oldu. Eləcə də ötən il Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş zəlzələ zamanı zərər çəkmiş vətəndaşlar dərhal Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyini hiss etdilər. Ölkə rəhbərliyinin reaksiyası ilk növbədə çətinliyə düşmüş vətəndaşlara köməklik göstərilməsindən və onların üzləşdiyi problemlərin həllindən ibarət oldu.

Koronavirus pandemiyası da ekstremal situasiyalardan biridir. Bu qlobal problemə qarşı ilk gündən həyata keçirilən operativ tədbirlər də bir daha göstərdi ki, İlham Əliyev üçün ən ümdə məsələlərdən biri məhz vətəndaşın təhlükəsizliyi və rifahıdır.

### Sosial rifaha yönələn kompleks tədbirlər

Məlum olduğu kimi, Azərbaycan Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamına əsasən, COVID-19 pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə dəyəri 3 milyard manatı ötən sosial-iqtisadi dəstək paketi qəbul olunub. Elə bu paketdə yer alan məsələlər göstərdi ki, ölkə rəhbərliyi yaranmış vəziyyətlə əlaqədar insanların çətinlik çəkməməsi üçün sosial sahədə yeni tədbirlər reallaşdıracaq.

Son ayların sosial statistik göstəriciləri də təsdiq edir ki, respublikamızda vətəndaşların sosial təminatı ilə bağlı dünyanın azsaylı ölkələrində rast gəlinən tədbirlər həyata keçirilir. Belə ki, pandemiya dövründə dövlət sektorunda fəaliyyət göstərən 900 min insanın əməkhaqqı tam, özəl sektorda təxminən 700 min insanın, mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi.

Pandemiya ilə əlaqədar aprel ayından ünvanlı sosial yardım alan ailələrin də sayı təxminən 12 min artırılıb. Konkret ifadə etsək, hazırda 80 min ailə ünvanlı sosial yardım proqramı ilə əhatə olunur və orta hesabla hər bir ailəyə hər ay 220 manatdan çox vəsait ödənilir. 80 min ailə isə, ümumilikdə, 600 min vətəndaşa sosial yardım verilməsi deməkdir. Bu dövrdə sosial sahədə atılan mühüm addımlardan biri də ictimai iş yerləri ilə bağlıdır. Belə ki, ödənişli ictimai iş yerlərinin sayı 2 dəfə artırılaraq 90 minə çatdırılacaq.

Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin mahiyyətinə uyğun olaraq son ayların əsas qürur doğuran hadisələrindən biri də həyata keçirilən sosial proqramların və eləcə də sosial infrastruktur layihələrinin heç birinin ixtisar edilməməsidir. Pandemiya ilə əlaqədar iqtisadi göstəricilərin azalmasına, neftin qiymətinin dəfələrlə aşağı düşməsinə baxmayaraq, Azərbaycan dövləti bütün sosial proqram və layihələri həyata keçirməkdə davam etdi. Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bütün bunların bizim siyasətimizin mahiyyətini təşkil etdiyini bildirdi: "Mən ilin əvvəlində və pandemiyanın artıq alovlanan dövründə demişəm ki, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək və biz bunu təmin edirik. Eyni zamanda sosial infrastruktur layihələrinin heç biri ixtisar olunmayıb. Ona görə bu sahəyə göstərilən diqqət və əməli-praktiki addımlar bir daha bizim siyasətimizin mahiyyətini göstərir. Bir də onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

Bütün bu qeyd edilənlərlə yanaşı, xüsusi karantin rejimi dövründə çətin vəziyyətdə olan şəxslərə və tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmətlərin göstərilməsi, onlara müvafiq yardımların edilməsi, işə çıxmayan bütün vətəndaşların karantin günlərində əməkhaqlarının ödənilməsi ölkədəki mütərəqqi sosial siyasətin ayrı-ayrı nümunələridir.

### Xalq-iqtidar həmrəyliyinin təcəssümü

Beləliklə, koronavirus pandemiyası ilə əlaqədar yaranmış situasiyada əsas vəzifələr insanların sağlamlığı və sosial təminatı idi ki, onların hər ikisi də yerinə yetirildi. Ona görə də bu gün Azərbaycan bütün dünyada nümunə olaraq göstərilir. Beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanda görülən işlər təqdir olunur. Azərbaycan həm də Türk Şurasına və Qoşulmama Hərəkatına rəhbərliyi uğurla həyata keçirərək, bu təşkilatları qlobal pandemiya ilə mübarizə işinə səfərbər edir. Bu günə Azərbaycanın 3 beynəlxalq təşkilata, 13 ölkəyə yardım göstərməsi isə beynəlxalq münasibətlər sistemində nadir rast gəlinən hadisələrdən sayılır.

Prezident İlham Əliyevin pandemiyanın fəsadları ilə uğurlu mübarizə strategiyası ümummilli dəstəklə müşayiət olunur. Hazırda İlham Əliyevin ünvanına həm ölkə vətəndaşlarından, həm də xaricdən minnətdarlıq məktubları gəlməkdə davam edir. Bu məktubların hər birində Prezidentə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıq hissi ifadə olunur, ən xoş, ən səmimi arzular səsləndirilir. Bu məktubların hər biri xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsinin və bu çətin günlərdə milli birlik nümayiş etdirməsinin, xalq-iqtidar həmrəyliyinin təcəssümüdür.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan o ölkələrdəndir ki, həmişə üzüağ və alnıaçıq olub. Koronavirus pandemiyası bunu bir daha təsdiqləyir. İlham Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan ciddi fəsadlar olmadan virus təhlükəsini dəf edir. İndi əsas məsələ vətəndaş məsuliyyətidir. İnsanlar karantin rejiminin yumşaldılmasından arxayınlaşmamalı, qayda və tələblərə əməl etməlidirlər. Çünki hər bir vətəndaşın məsuliyyətli olması özünün və yaxınlarının sağlamlığı ilə yanaşı, koronavirusla mübarizədə dövlətin həyata keçirdiyi işlərə dəstək vermək və vətəndaş həmrəyliyi nümayiş etdirmək deməkdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusa daha 106 nəfər yoluxub, 59 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 106 yoluxma faktı qeydə alınıb, 59 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1949 və 1962-ci il təvəllüdlü iki nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 3855 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2399 nəfər müalicə olunaraq sağalıb, 46 nəfər vəfat edib, 1410 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 48 nəfərin vəziyyəti ağır, 61 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 259.155 test aparılıb.

# İyunun 1-dən sonra iri ticarət mərkəzlərinin açılması və rayonlara gediş-gəlişin bərpası gözlənilir

"Azərbaycanda xüsusi karantin rejiminin uzadılması epidemik göstəricilərdən asılı olacaq". AZƏRTAC xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

"İyunda ölkəmizdə kütləvi tədbirlərin, toy mərasimlərinin keçirilməsini məqbul hesab etmirik. Epidemioloji vəziyyət buna imkan vermir. Lakin iyunun 1-dən sonra iri ticarət mərkəzlərinin, "mall"arın açılması və rayonlara gediş-gəlişin bərpası gündəmdədir. Əgər göstəricilər stabil olsa, bununla bağlı qərar qəbul edilə bilər. Rayonlara gediş-gəlişin bərpasına gəlincə isə bunun şəxsi avtomobil və ya ictimai nəqliyyatla olması da müzakirə edilir. Çimərliklərin açılması ilə bağlı problem görmürük. Əsas məsələ orada sosial məsafənin qorunmasıdır. Bununla bağlı təlimatlar, göstərişlər hazırlanır və yaxın günlərdə açıqlanacaq. İdman tədbirləri ilə bağlı məsələ də müzakirə olunur", - deyə R.Bayramlı qeyd edib.

SOCAR
SOCAR PETROLEUM QSC
xalqımızı
Respublika Günü
münasibətilə təbrik edir, sülh,
əmin-amanlıq, xoş gələcək arzulayır.






Bayramınız mübarək!

# Bölgələrdə yaşayan 4000-dən çox ailə "Azercell"dən dəstək aldı

Şirkət korporativ sosial məsuliyyət strategiyası çərçivəsində müqəddəs Ramazan ayı boyu aztəminatlı ailələrə ərzaq məhsullarından ibarət sovqat çatdırıb









"Azercell Telekom" MMC koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə həssas təbəqədən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində təşəbbüslərini əsirgəmir və aztəminatlı ailələrə dəstəyini davam etdirir.

Belə ki, şirkət karantin dövründə müqəddəs Ramazan ayının dördüncü həftəsində də bölgələrdə yaşayan 1000-dən çox xüsusi diqqət və qayğıya ehtiyacı olan ailəyə ərzaq yardımı göndərib. Bununla da, ümumilikdə Ramazan ayı boyu bölgələrdə sosial təcrid şəraitində yaşayan həssas kateqoriyalardan olan 4000-dən çox ailəyə ərzaq məhsullarından ibarət sovqat paylanıb. "Azercell"in bu xeyriyyə layihəsindən Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Göygöl, Hacıqabul, Xızı, Naftalan, Xocalı, Zəngilan, Şuşa, Kəlbəcər sakinləri yararlanıblar.

Sovqatları Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti ölkə boyu müxtəlif ünvanlara çatdırıb. Aztəminatlı ailələrin siyahısı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunub.

Xatırladaq ki, Novruz bayramı münasibətilə və koronavirus (COVID-19) infeksiyası ilə mübarizə çərçivəsində "Azercell Telekom" MMC həssas qrup kateqoriyadan olan insanlara qayğı və dəstək məqsədilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB) ilə birlikdə I qrup əlilliyə görə sosial müavinət alan ailə üzvü olan 6000-ə yaxın aztəminatlı ailəyə bayram sovqatı paylamışdı.

Eyni zamanda, lider mobil operator tərəfindən həyata keçirilən aksiyaların davamı olaraq "Azercell" əməkdaşları da xeyirxah təşəbbüsə qoşularaq öz töhfələrini veriblər. Belə ki, xüsusi karantin rejiminin tətbiq olunduğu bu müddət ərzində şirkət əməkdaşlarından ibarət "Azercell könüllüləri" dəstəyə ehtiyacı olan ailələri ziyarət edərək onları ərzaq məhsulları ilə təmin ediblər.

Qeyd edək ki, "Azercell Telekom" MMC COVID-19 pandemiyası dövründə bir çox sosial layihə və xeyriyyə aksiyaları gerçəkləşdirib.

***"Azərbaycan"***

# Zəngin yeraltı sərvətlərimiz yeni iqtisadi analizlərin aparılmasını tələb edir

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev təbii sərvətlərdən səmərəli istifadənin təmin edilməsi və ölkə iqtisadiyyatının əsas sektorlarının gələcək tələbatını ödəməyə qadir olan mineral-xammal bazasının formalaşdırılması məqsədilə bu il martın 16-da "Yer təkinin geoloji öyrənilməsinə və mineral-xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır.**

Danılmaz faktdır ki, hər bir dövlətin siyasi qüdrətini, müdafiə qabiliyyətini, sosial-iqtisadi inkişaf tempini müəyyənləşdirən amillərdən biri də onun mineral-xammal bazasıdır. Dövlət başçısının "bundan sonra iqtisadiyyatımızı ancaq islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına inkişaf etdirəcəyik" kimi fikrinə söykənən siyasəti sayəsində bu gün məmnuniyyətlə qeyd etmək istərdik ki, istehsalatda işləyən və alim geoloqlarımızın əməyi və səyi nəticəsində Azərbaycanın əsas iqtisadi istiqamətlərini və potensialını müəyyənləşdirən etibarlı mineral-xammal bazası yaradılmışdır. Təsadüfi deyil ki, ölkə iqtisadiyyatının bir sıra sahələri, xüsusən qeyri-neft sektoruna daxil olan ağır sənaye, əlvan metallurgiya və tikinti sənayesi sahələrinin formalaşması, inkişafı bilavasitə mineral-xammal bazasından istifadəyə əsaslanır.

Bakı Dövlət Universitetinin Geologiya fakültəsinin Faydalı qazıntılar kafedrasının müdiri, "Yer ehtiyatlarının aerokosmik tədqiqatları" ETL-in elmi rəhbəri, geologiya-mineralogiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Vasif Babazadənin və həmin kafedranın dosenti Şəhla Abdullayevanın Azərbaycanın mineral-xammal resurslarının kompleks tədqiqinə həsr olunmuş silsilə əsərlərinin (8 monoqrafiya, 2 kosmotektonik xəritə) elm sahəsi üzrə 2020-ci ilin dövlət mükafatına təqdim edilməsi bu baxımdan təqdirəlayiqdir.

Yeraltı sərvətlərimiz barədə geniş məlumatı əks etdirən silsilə əsərlər çox ciddi, elmi cəhətdən peşəkar səviyyədə yazılmışdır. Onu da qeyd edək ki, Azərbaycanın yeraltı sərvətləri haqqında sistemli məlumat vermək asan iş deyil. Bu baxımdan təqdim edilən silsilə əsərlərə adi vəsait kimi deyil, eyni zamanda ölkə iqtisadiyyatının inkişafına investisiyanın cəlb olunmasında bir vasitə kimi baxmaq lazımdır. Heç şübhəsiz ki, bu əsərlərdən əməli istifadə faydalı qazıntı yataqlarının proqnozlaşdırmasını, qanunauyğun yerləşməsini, nəhayət, təbii sərvətlərin işlənməsini asanlaşdıracaq.

Dünyada Azərbaycan kimi mineral-xammal sərvətlərilə zəngin olan ölkələr azdır. Ən böyük dövlətlər də xammal baxımından başqa ölkələrdən asılıdır. Zəngin təbii sərvətlərə malik Azərbaycan isə heç bir dövlətdən asılı olmadan güclü iqtisadiyyat yaratmışdır. Ölkəmizə dünya şöhrəti qazandıran karbohidrogen xammalından başqa, yerin təkində ümumilikdə 750 faydalı qazıntı yatağının olması müəyyən edilmişdir. Bəlli olur ki, ölkə ərazisinin hər yüz kvadrat kilometr sahəsinə təxminən 9 yataq düşür. Onların sırasında qara, əlvan və nəcib metal filizləri, qeyri-filiz xammalı və tikinti materialları, texniki mineral xammal, yeraltı şirin, mineral, termal və yodlu-bromlu sənaye su yataqları vardır.

Ölkə iqtisadiyyatında bazar münasibətlərinin formalaşdığı və azad sahibkarlığın inkişafına geniş meydan açıldığı indiki vaxtda qeyri-filiz və tikinti materialları yataqlarının istismara cəlb edilməsi böyük əhəmiyyətə malikdir. İndi Azərbaycanda 400-ə yaxın hüquqi və fiziki şəxs qismində müəssisə qeyri-filiz xammalı və müxtəlif tikinti materiallarının hasilatı, istehsalı üzrə fəaliyyət göstərir.

Silsilə əsərlərdə alimlərimiz neftə alternativ baxıla bilən metallik faydalı qazıntı yataqları üzərində xüsusən ətraflı dayanırlar. Göstərilir ki, Azərbaycanın təkində təkcə filiz faydalı qazıntılarının 20-dən artıq müxtəlif növü aşkar edilmişdir. Özü də onların bir qismi çox iri yataqlarla təmsil olunmuşdur. Müəlliflərin fikrincə, bu növ mineral-xammal resurslara neftə alternativ kimi baxılmalıdır və onlar müxtəlif sahələrin, xüsusən əlvan metallurgiya sənayesinin inkişafına zəmin yaratmalıdır.

Alimlərimizin ardınca biz dövlətimiz üçün prioritet əhəmiyyət daşıyan filiz faydalı qazıntılarının siyahısını bir daha nəzərdən keçirməli və bu mineral-xammaldan səmərəli istifadə yolları haqqında düşünməliyik. Bu siyahıya dəmiri, alüminiumu, misi, qurğuşunu, sinki, molibdeni, xromu, qızılı, civəni, kobaltı və b. daxil etmək olar. Götürək Balakən rayonunda yerləşən Filizçay kolçedan-polimetal yatağını. Bu yataq ehtiyatına və filizlərdə metalların çeşidliyinə görə Avropanın unikal yataqlarından biri hesab edilir. Yatağın yerləşdiyi Balakən-Şəki metallogenik zonasında 10-dan artıq iri və orta ölçülü bu tip yataq aşkar edilmişdir (Katex, Kasdağ, Saqator, Mazımçay və b.). Əlbəttə, bu zonada polimetal kombinatı ilə birgə iri əlvan metallurgiya mərkəzi yaratmaq iqtisadi baxımdan əlverişli olardı. Kombinatın ekoloji cəhətdən zərərsiz, mütərəqqi texnologiya ilə işləməsi Filizçay yatağının filizlərindən faydalı komponentlərin (qurğuşun, sink, mis, qızıl, gümüş, bismut, kobalt, kadmium, indium, selen, tellur və s.) büsbütün çıxarılmasına imkan verər, üstəlik, yerin təkindəki kükürd kolçedanının böyük ehtiyatına malik olan, həmçinin flotasiya tullantısında saxlanılan bu xammalın itkisini aradan qaldırar, ondan sulfat turşusu və sərbəst kükürd almaq imkanı yaradardı. Bütün bunlar Balakən, Zaqatala rayonlarında sənayeni təşkil etməyə, kənd təsərrüfatının inkişafını intensivləşdirməyə, yerli əhalinin əlavə iş yerləri ilə təmin olunmasına kömək edərdi.

Digər misal: keçən əsrin 80-ci illərində geoloqlarımızın səyi nəticəsində Azərbaycanın bir sıra bölgələrində yeni tip filizləşmə - mis və molibden-porfir yataqları aşkar olunmuşdur. Onlardan ən perspektivliləri Qaradağ, Xarxar, Diaxçay, Göygündür, Misdağ və s.-dir. Bu yataqların filizlərindən mis, molibden və digər faydalı komponentlər çıxartmaq olar. Onu da qeyd etmək yerinə düşər ki, Nazirlər Kabinetinin 29 dekabr 1993-cü il 638 saylı qərarı ilə Şəmkir rayonu ərazisində Qaradağ mis-porfir mədəni əsasında göydaş istehsalı üzrə "Çənlibel" dağ-mədən dövlət müəssisəsinin yaradılması nəzərdə tutulmuşdu.

Prezident İlham Əliyev 2017-ci il aprel ayının 17-də Yevlax rayonunda keçirilən qeyri-neft ixracatçılarının birinci respublika müşavirəsindəki çıxışında resurslarımızdan səmərəli şəkildə istifadə etməyi vurğulamış, təbii ehtiyatlarımızın təkcə neftlə, qazla məhdudlaşmamasını, əhəmiyyətli qızıl yataqlarının mövcudluğunu, bu məqsədlə bir müddət bundan əvvəl "AzerGold" dövlət qurumu - səhmdar cəmiyyətinin yaradılmasını, həmin yataqların istismarı və ixracı çərçivəsində işlərin aparılmasını, digər qiymətli faydalı qazıntı yataqlarının da mövcud olmasını, bu sahədə on milyonlarla dollar ixrac potensialının yaranmasını göstərmişdir. Prezident, eyni zamanda Azərbaycanda qara metallurgiyanın mineral xammal bazası sayılan Daşkəsən dəmir yatağı əsasında vahid bir istehsalat sahəsinin olmaması səbəbindən filizin çıxarılmasından başlayaraq son ixrac məhsuluna qədər bütöv istehsalat zəncirinin yaradılmasının vacibliyini qeyd etmişdir.

Ölkəmiz üçün əsas və strateji xammallardan biri olan qızıl yataqlarının istismarı da gündəlikdə duran vacib məsələlərdəndir. Bu baxımdan dövlət mükafatına təqdim edilən silsilə əsərlərdə ən önəmli yeri qızıl yataqlarının tutması təsadüfi deyil. Müəlliflərin "Azərbaycan qızılı", "Nəcib metal filiz-maqmatik sistemləri", "Ada qövsləri paleosistemlərinin qızıl saxlayan sulfid yataqları, onların metallogenik xüsusiyyətləri və geodinamik inkişafı" və s. bu kimi kitablarının elmi və praktiki əhəmiyyəti əvəzsizdir.

Azərbaycanın müxtəlif bölgələrində məxsusi və kompleks, habelə səpinti qızıl yataqları aşkar edilmişdir. Hazırda yalnız Gədəbəy qızıl-mis kolçedanı yatağı emal edilir, iri və əhəmiyyətli dərəcəli Çovdar qızıl yatağı istismar ərəfəsindədir. Bundan əlavə, çox perspektivli Tülallar qızıl yatağının da ehtiyatı hesablanır, Qoşa, Dağkəsəmən və digər yataqların istismarı gündəmdə saxlanılır. Elmi əsərlərdə təklif edilir ki, qızılın iştirak etdiyi və ehtiyatı böyük olmayan az rentabelli yataqların (məsələn, qızıl saxlayan mis-porfir yataqları) bir-birinə yaxın yerləşməsini nəzərə alaraq, onların kompleks şəkildə istismarına baxılma məsələsi nəzərə alınmalıdır.

Müəlliflər göstərirlər ki, nəcib metal yataqları üçün müəyyən olunmuş regional və lokal yerləşmə qanunauyğunluqları zəif öyrənilmiş təzahürlərin, habelə istismar edilən, yaxud istismara hazırlanan yataqların dərin horizontlarının perspektiv qiymətləndirilməsi üçün gizli filizləşmənin proqnozu və axtarışında da vacib meyar hesab edilə bilər. Bütün bunlar qızılçıxarma kimi sənaye infrastrukturunun yaradılmasına, dövlətin qızıl fondunun möhkəmlənməsinə, çevik xarici əlaqə ünsiyyətlərinin qurulmasına və nəhayət, xarici sərmayə qoyuluşlarının cəlb olunmasına gətirib çıxarar.

Silsilə əsərlərə qoşulan "Azərbaycanın kosmotektonik xəritəsi" və "Filiz faydalı qazıntılarının proqnozlaşdırılması ilə Azərbaycanın regional çatlılıq xəritəsi" üzərində ayrıca dayanmaq istərdik. Xəritələrdə müxtəlif miqyaslı kosmik və aeroşəkillərin deşifrə olunması, geoloji-geofiziki, geokimyəvi, buruq-qazma və geoloji planlama işlərinin təhlili nəticəsində metallogenik zonalar, başlıca filiz yataqları, müxtəlif tip minerallaşmanın perspektivli sahələrinin konturları öz əksini tapmış, Azərbaycanın qızıl filizi əyaləti ayrılmışdır. MDB məkanında ilk dəfə olaraq geodinamik əsasla tərtib olunmuş bu xəritələr AMEA-da mühüm elmi nəticə kimi qəbul edilmiş, 30-cu (Pekin) və 33-cü (Oslo) Beynəlxalq Geoloji konqreslərdə nümayiş etdirilmişdir. "Azərbaycan qızılı" və "Azərbaycanın mineral-xammal resursları" monoqrafiyaları, habelə adları çəkilən kosmotektonik xəritələrin Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində təqdimat mərasimi keçirilmişdir. Müxtəlif illərdə bu əsərlər Moskvada və Sankt-Peterburqda keçirilən Beynəlxalq kitab yarmarkalarında Azərbaycanın stendlərində, kosmotektonik xəritələr isə Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisində nümayiş etdirilmişdir.

Fundamental əsərlər toplusu və ona qoşulan kosmotektonik xəritələrdə geologiya elminin müasir konsepsiyaları nəzərə alınmış, elmi baxımdan təkmil, təcrübi cəhətdən çox əhəmiyyətli vəsaitlər hazırlanmışdır. Azərbaycan elminə böyük töhfə olan bu kitablar qeyri-neft sektoruna aid olan ən əhəmiyyətli nəşrlər sayıla bilər.

Ümumiyyətlə, mineral-xammal bazasından əməli istifadə tamamilə yeni iqtisadi analizlərin aparılmasını tələb edir. Şübhə etmirik ki, dövlət mükafatına təqdim edilən və zəngin yeraltı sərvətlərimizin atlası olan silsilə əsərlər bu baxımdan çox faydalı olacaqdır.

***M.ƏLİYEV,***
***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Xidmətinin rəisi, texnika elmləri doktoru, professor***

***Ş.SƏFƏROV,***
***baş geoloq***

# Liviyada silahlar niyə susmur

Ölkədə vəziyyət qarşıdurmanın şiddətlənməsinə doğru gedir



Doqquz ildən çoxdur Liviyada başlamış silahlı qarşıdurma səngimək bilmir ki, bilmir. 2011-ci ildə eks-diktator Müəmmər Qəzzafi rejimi devrildikdən sonra elə bir təəssürat yaranırdı ki, istibdad üsul-idarəsindən bezmiş xalq bir araya gəlib gələcək taleyini müəyyənləşdirəcək.

Doğrudan da, 2014-cü ilin ortalarınadək hadisələr arzuolunan istiqamətdə cərəyan edirdi. Vətəndaş müharibəsi başlayar-başlamaz yeni dövlət təsisatlarının yaradılması işi start götürdü. Əvvəlcə müvəqqəti hakimiyyət orqanı - Milli Keçid Şurası (MKŞ) təşkil olundu. 2012-ci ilin iyulunda müəssislər assambleyasına - Ümumxalq Milli Konqresinə (ÜMK) seçkilər keçirildi. Növbəti ayda hakimiyyət MKŞ-dən ÜMK-ya verildi. 2014-cü ilin fevralında 60 nəfərdən ibarət Liviya Konstitusiya Assambleyası seçildi. Assambleya 120 gün ərzində ölkə konstitusiyasının layihəsini hazırlamalı idi. Əsas qanun idarəetmənin başlıca prinsiplərini, hakimiyyət orqanları sistemini, qəbilələrin statusunu, həmçinin şəriət qanunlarının cəmiyyətdə yerini müəyyənləşdirməli idi. Sonra sənəd referenduma çıxarılmalı idi.

Lakin 2014-cü ilin mayında istefada olan general Xəlifə Həftər tərəfdarları ilə birgə ölkənin ikinci böyük şəhərində - Benqazidə "Liviya milli ordusu" adlı qanunsuz təşkilat yaradaraq siyasi səhnəyə çıxdı və beləliklə, ölkədə hakimiyyət uğrunda silahlı mübarizə qızışdı. Həmin ilin avqustunda ÜMK hakimiyyəti xalq tərəfindən seçilmiş parlamentə - Liviya Nümayəndələr Palatasına təhvil verdi. Parlament az sonra paytaxt Trablisdən ölkənin şərqində yerləşən Tobruq şəhərinə köçdü. 170 deputatdan ibarət parlamentin üzvlərinin 70-i paytaxta qayıtmış, 12-si Türkiyəyə mühacirət etmişdi. Buna baxmayaraq, Nümayəndələr Palatası fəaliyyətini davam etdirdi və atdığı addımlarla mərkəzi hökumətlə qarşıdurma xətti götürdü. Liviya Konstitusiya Məhkəməsi parlamentin buraxılması barədə qərar qəbul etsə də, parlamentarlar bu qərara tabe olmadılar. İndi parlamentin səlahiyyət müddəti artıq bitmişdir.

Beləliklə, ölkədə ikihakimiyyətlilik bərqərar oldu: paytaxtda Nazirlər Kabineti və Tobruqda parlament. Səlahiyyəti olmayan parlament 2015-ci ilin fevralında Xəlifə Həftəri Liviya Silahlı Qüvvələrinin komandanı təyin etdi. Trablis hökuməti bu təyinatı ölkənin parçalanmasına aparan addım kimi qiymətləndirdi və Həftəri müharibə canisi elan etdi.

2015-ci ilin dekabrında münaqişə tərəfləri BMT Təhlükəsizlik Şurasının dəstəyi ilə Mərakeşin Sxeyrat şəhərində birlik hökumətinin yaradılması haqqında saziş imzaladılar. Sənədə uyğun olaraq, paytaxtda Faiz Sərracın başçılığı ilə milli barışıq hökuməti təşkil olundu. Nümayəndələr Palatası əvvəlcə legitim hökuməti dəstəkləyirdi, amma sonralar mövqeyini dəyişdirib mərkəzi hakimiyyət orqanları ilə qarşıdurmanı bərpa etdi.

Ötən ilin aprelində Həftər paytaxt istiqamətində hücuma başlamış və legitim hökumətin qoşunları üzərində müəyyən üstünlük əldə etmişdi. O vaxt qiyamçı general kifayət qədər güclü idi. Həftər Birləşmiş Ərəb Əmirlikləri, Misir, Rusiya və Fransa kimi ölkələrdən yetərli maliyyə və hərbi dəstək alırdı. Rusiyanın "Vaqnerin hərbi şirkəti"nin döyüşçüləri, Suriya, Sudan və Çaddan gətirilmiş muzdlular Həftərin tərəfində vuruşurdular. Döyüşlər Trablisin bilavasitə yaxınlığında gedirdi.

Bütün bu səbəblərdən atəşin dayandırılmasına nail olmaq, ölkənin qan gölünə çevrilməsinin qarşısını almaq üçün irəli sürülən təşəbbüslər nəticəsiz qalırdı. Cari ayın ilk aylarında əvvəlcə Moskvada, sonra isə Berlində aparılmış danışıqlar zamanı münaqişə tərəflərini ortaq məxrəcə gətirib atəşi dayandırmaq mümkün olmadı.

Keçən ilin axırlarında Türkiyənin Liviya legitim hökuməti ilə hərbi əməkdaşlıq haqqında saziş imzalaması Şimali Afrika ölkəsində hadisələrin gedişində dönüş mərhələsinin başlanğıcı oldu. Əldə edilmiş razılaşmalara uyğun olaraq, türkiyəli hərbi müşavirlər Liviya hökumət qoşunlarına təlim verməyə başladılar. Son iki ay ərzində Türkiyə-Liviya hərbi əməkdaşlığı səmərəsini verdi. Legitim hökumətin qoşunları qiyamçıların mövqelərinə bir-birinin ardınca sarsıdıcı zərbələr endirib onları geri çəkilməyə məcbur etdi. Trablisə hücum üçün tramplin kimi istifadə edilən "Vətiyyə" aviabazası qanuni hökumətin əlinə keçdi. Üstəlik, qiyamçıların hava hücumundan müdafiə sistemləri məhv edildi. Türkiyə istehsalı olan pilotsuz təyyarələr yüksək döyüş qabiliyyətini nümayiş etdirdi.

Qüvvələr nisbətində aşkar dəyişikliyi görən qiyamçı general və onun xarici havadarları sülh göyərçini donu geyib atəşi dayandırmaq təşəbbüsü irəli sürdülər. Bu dəfə milli barışıq hökuməti atəşi dayandırmaqdan imtina etdi, çünki əks tərəfin niyyəti gizli deyildi: qanunsuz silahlı birləşmələr bu yolla nəfəs alıb qüvvələrini yenidən qruplaşdırmaq üçün vaxt qazanmaq istəyirdi.

Görünən odur ki, Liviyada yaranmış gərgin vəziyyətdən çıxış yolu tapmaq indiki mərhələdə son dərəcə çətindir. Münaqişə tərəflərindən hansısa birinin mütləq üstünlük əldə edib məsələni hərbi yolla həll edəcəyini gözləmək lazım gəlmir. Qiyamçılar və onların müttəfiqləri nə az-nə çox - Türkiyənin Liviyadan çıxmasına nail olmaq istəyirlər. Amma çətin ki, nə Trablis, nə də Ankara ağ bayraq qaldırsın. Başqa sözlə, Liviyada yoğrulan xəmir hələ çox su aparacaq.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

GCM GLOBAL ENERGY AZERBAIJAN

**"Global Energy Azerbaijan"**

**şirkəti və onun törəmə şirkətləri**

*Azərbaycan xalqını*

"Absheron Operating Company"

"Binagadi Oil Company"

"Karasu Operating Company"

"Shirvan Operating Company"

"Neftechala Operating Company"

*Ramazan bayramı və Respublika Günü*

münasibətilə təbrik edir, hər bir ailəyə sevinc, səadət dolu günlər arzulayır.

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Azərbaycan xalqını*

**Ramazan bayramı**

*münasibətilə təbrik edir, bolluq, firavanlıq və işıqlı gələcək arzulayır.*




**B İ L D İ R İ Ş**

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən "DOST Agentliyi və DOST Mərkəzlərində daxili biznes istiqamətləri üzrə biznes proseslərini avtomatlaşdırmaq üçün proqram təminatlarının (ERP sistemi) hazırlanması işlərinin satın alınması" üzrə "Azərbaycan" qəzetinin 13.05.2020-ci il tarixli sayında elan olunmuş müsabiqə Tender komissiyasının 22.05.2020-ci il tarixli protokol qərarına əsasən açıq tender prosedurunun davamından imtina edilir.

*Tender komissiyası*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

AZPETROL

*"Azpetrol" şirkəti*

*Azərbaycan xalqını*

*28 May - Respublika Günü*

*münasibətilə təbrik edir. Şirkət xalqımıza sülh, birlik, xoşbəxtlik, əmin-amanlıq, yüksək rifah, xoş gələcək və firavan həyat arzulayır.*



**"Bakı Abadlıq Xidməti" MMC**

**Azərbaycan xalqını**



**28 May - Respublika Günü**

**münasibətilə təbrik edir, sülh, xoşbəxtlik, əmin-amanlıq və firavan həyat arzulayır.**

## Ramazan bayramı ərəfəsində aztəminatlı ailələrə növbəti ərzaq payı verilmişdir



Astara Rayon İcra Hakimiyyəti tərəfindən koronavirusla mübarizə tədbirləri çərçivəsində Ramazan bayramı ərəfəsində növbəti dəfə aztəminatlı ailələrə ərzaq yardımı göstərmişdir.

Yardımlar karantin dövründə maddi vəziyyəti çətinləşmiş daha 1000 aztəminatlı ailəyə evlərində çatdırılmışdır. Mövcud vəziyyət mütəmadi olaraq öyrənilir, qarşıya çıxan problemlərin həlli istiqamətində əməli tədbirlər görülür və aztəminatlı ailələrin zəruri ehtiyaclarının ödənilməsi davam etdirilir.

Ölkədə karantin rejiminin yumşaldılmasına baxmayaraq, vətəndaşlarla Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə ciddi riayət etmələri barədə təbliğat işləri aparılır.

Rayon rəhbərliyinin tapşırığı ilə koronavirus xəstəliyinin əhalinin sağlamlığına vura biləcəyi zərərin qarşısının alınmasından ötrü mütəmadi olaraq şəhərdə əhalinin yaxın təmasda olduğu yerlərdə əhali maarifləndirilir, onlara tibbi maskalar paylanılır. Rayon ərazisində dezinfeksiya işlərinin aparılması da daim diqqətdə saxlanılır.

*Safail MƏMMƏDOV,*
*Astara rayonu*



azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan xalqını
28 May -
Respublika Günü
münasibətilə təbrik edir, bolluq,
firavanlıq və işıqlı gələcək arzulayır




Günay Bank

Azərbaycan xalqını
Respublika
Günü
münasibətilə təbrik edir



# Cəlilabad rayonunun ən ucqar 7 kəndində elektrik enerji sistemi tamamilə yenidən qurulur

"Azərişıq" ASC tərəfindən "Yeni kəndlər layihəsi" çərçivəsində Cəlilabad rayonunun 7 yaşayış məntəqəsi və bir sərhəd zastavası- ümumilikdə 670 abonentin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması işlərinə başlanılıb.

Rayon mərkəzindən 50 km uzaqlıqda yerləşən Boyxanlı kəndində işlərə artıq start verilib. İlk dəfə 1963-cü ildə enerji təchizatı ilə təmin olunan kənddə elektrik enerjisi təsərrüfatında sonuncu dəfə 1980-ci ildə cari təmir işləri aparılıb. 40 il sonra "Azərişıq" ASC kənddə elektrik enerji sistemini tamamilə yenidən qurur. Yararsız elektrik naqilləri, dayaqlar, sayğaclar və transfarmator məntəqələri tamamilə yenilənəcək. Mərhələli şəkildə yenilənmə prossesi 7 kənddə icra olunacaq.








## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən "Azərbaycan" qəzetinin 15 aprel və 07 may 2020-ci il tarixli saylarında dərc edilmiş videoçarxların və infoqrafika işlərinin satın alınması ilə bağlı keçiriləcək açıq tenderdə Tender komissiyasının qərarına əsasən təkliflərin son təqdim olunma tarixi 02 iyun 2020-ci il saat 15:00-a qədər, zərflərin açılışı vaxtı 03 iyun 2020-ci il saat 15:00-a qədər uzadılmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən "DOST Mərkəzlərində Ünvanlı Dövlət Sosial Yardım (ÜDSY) üzrə monitorinq qruplarının təchizatı üzrə proqram təminatının satın alınması" ilə əlaqədar "Azərbaycan" qəzetinin 13.05.2020-ci il tarixli sayında elan olunmuş müsabiqə Tender komissiyasının 22.05.2020-ci il tarixli protokol qərarına əsasən açıq tender prosedurunun davamından imtina edilir.

*Tender komissiyası*

Coca-Cola
şirkəti Azərbaycan xalqını
28 May -
Respublika Günü
münasibətilə
təbrik edir,
ruzi-bərəkət, firavanlıq və
xoş gələcək arzulayır
Bayramınız mübarək!

# 28 MAY
# RESPUBLİKA GÜNÜ

*Respublika Günü münasibətilə dost və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, tərəqqi, rifah və əmin-amanlıq arzulayırıq.*

TEKFEN İNŞAAT


## Karvan gedir

Bir karvan
Dünyanın o biri başından
Sonu görünməyən
Bu biri başına
Öz ləngəri, öz ahəngi,
Neçə-neçə qəhrəmanı,
sərkərdəsi, dahisiylə
Cavanşiri, Babəkiylə,
Nizamisi, Füzulisi,
Xətaisi, Heydəriylə.
Bundan belə sadalasaq
Sayagəlməz ərləriylə,
mərdləriylə.
Hey yol gəlir.
Üzü nurlu sabahlara
gedə-gedə
Cığır açır,
Günəş kimi şəfəq saçır.
Öz yolunu - düz yolunu
seçib gedir,
Keçib gedir
Bu karvan.
Onun yükü insanlıqdır,
Ədalətdir, həqiqətdir,
mərhəmətdir, cəsarətdir.
Sənə, mənə, o birinə
Bəslədiyi bir hörmətdir,
məhəbbətdir,
Vətən adlı bir qeyrətdir.
Fəqət, fəqət zaman-zaman
Gah bu yandan,
Gah o yandan,
Gah yaxından,
Gah uzaqdan,
qonşuluqdan
Bu dünyanın gəlişini,
gedişini,gərdişini
Baxar kortək görməyənlər,
Bilməyənlər -
Bu karvanın arxasınca
Kölgə kimi sürünənlər
Hey hürürlər.
Hürə-hürə
Günlərini keçirirlər.
Qoy hürsünlər,
Onların da peşələri,
Adətləri bu hürməkdir.
Buna görə ondan-bundan
aldıqları
Qrantlardır, yağlı-yağlı
əppəklərdir,
dürməklərdir.
Bu məqamda, bu arada
Atalarıın: "Hürən hürər,
Karvan keçər", -
Bir məsəli düşür yada.
Ey insanlar,
Biliniz ki, yaxşı-pisdən
Əməl qalır,
Həm ad qalır bu dünyada.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 21.04.2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş aşağıdakı satınalmalara dair tender proseduru Tender komissiyasının qərarına əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir:

- Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması;
- Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin satın alınması;
- Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün korporativ stil mallarının satın alınması.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 17.04.2020-ci il tarixli sayında dərc edilmiş Avtonəqliyyat vasitələrinə texniki xidmət, sürtkü materiallarının və ehtiyat hissələrinin dəyişdirilməsi xidmətləri işlərinin satın alınması prosedurunun qalibi "AUTO SERVİS" MMC müəyyən edilmişdir.

"Azərpoçt" MMC və "AUTO SERVİS" MMC arasında 19.05.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Təhsil müəssisələrinin təmir-tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması" üzrə 20 may 2020-ci il tarixdə keçirilmiş elektron açıq tenderdə LOT - 1 üzrə "BAKİNŞAAT GROUP" MMC, LOT - 2 üzrə "Azərdövlətlayihə" Dövlət Baş layihə İnstitutu, LOT - 3 üzrə "BİMD" MMC, LOT - 4 üzrə "AZƏRDÖVLƏTSƏNAYELAYİHƏ" Dövlət Layihə İnstitutu, LOT - 5 üzrə "SOSİAL-İNKİŞAF LAYİHƏ" MMC, LOT - 6 üzrə "Azkommunlayihə" KLİ qalib elan edilmişdir.

Qalib təşkilatlarla müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 18 və 19 fevral 2020-ci il tarixli nömrələrində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) Çəngəlli yükqaldırıcı avadanlığa texniki xidmətin (sərfiyyat materialları daxil olmaqla) satın alınması üzrə "İntermak Group" MMC, Məlumatlandırma xarakterli müxtəlif ölçülü və materialdan olan yazıların hazırlanması xidmətinin satın alınması üzrə Fiziki şəxs Məhərrəmzadə Fizzə Hikmət qızı, Fonddaxili korporativ tədbirlər zamanı istifadə üçün qəhvə maşınlarının satın alınması üzrə isə "MOKKO" MMC qalib olmuşdur.

Qalib şirkətlərlə 21 may 2020-ci ildə hər LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 29 aprel 2020-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə Ceyranbatan Su Təchizatı İdarəsinin havalandırma sistemində və qazanxana binasında təmir işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 09 iyun 2020-ci il saat 16:00, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 18 iyun 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 19 iyun 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" Publik Hüquqi Şəxsi (DOST Agentliyi) İdarənin xərcləri üzrə malların satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi "KƏMƏR QAYA" MMC müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankında Milli Ödəniş Sistemi infrastrukturunun əsas komponentlərinin vahid virtual infrastrukturda qurulması məqsədilə mal və xidmətlərin satın alınması ilə bağlı tenderin nəticələrinə dair

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankında Milli Ödəniş Sistemi infrastrukturunun əsas komponentlərinin vahid virtual infrastrukturda qurulması məqsədilə mal və xidmətlərin satın alınması ilə bağlı "Azərbaycan" qəzetinin 14 və 28 fevral 2020-ci il tarixli saylarında elan edilmiş açıq tenderin nəticələrinə görə Tender komissiyasının 13 aprel 2020-ci il tarixli qərarına əsasən "Sinam" şirkəti tenderin qalibi müəyyən edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı
### *satınalma sorğusunda iştiraka dəvət edir*

Predmet: BMT-nin İnkişaf proqramının layihələri üçün müxtəlif şəhər və rayonlara çatdırılmaq şərti ilə televizorların və müvafiq aksesuarların satın alınması üçün Çərçivə Müqaviləsi

İştirak etmək istəyənlər öz təkliflərini bu elana əlavə olunan keçiddəki formalara uyğun olaraq hazırlayıb aşağıdakı e-mail ünvanına təqdim edə bilərlər: **procurement.aze@undp.org**

**https://www.az.undp.org/content/azerbaijan/en/home/procurement.html**

Təkliflərin təqdim edilməsi üçün son tarix: 29 may 2020-ci il saat 18:00

Hər hansı sual olduğu təqdirdə, **procurement.aze@undp.org** ünvanına yazılı şəkildə müraciət etmək olar. Mövzu yerində "Televizorlar" göstərmək tövsiyə edilir.

***Tender komissiyası***


«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ceyhun Əliyevə əzizi

**NƏCƏF TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7526
Sifariş 1273
Qiymәti 40 qәpik